


## Qafqazın incisinə çevriləcək azad Şuşamız

7

Səs
№ 162 (6603) 8 sentyabr 2022-ci il. Qiyməti 60 qəpik

## YAP ölkənin siyasi mübarizələr tarixində yeni dönüş nöqtəsi oldu!

3




*Azərbaycan tarixinin ictimai-siyasi vəziyyətinin çətin və gərgin, ciddi sınaqlara məruz qaldığı zamanda, özbaşınalığın, xaos və anarxiyanın hökm sürdüyü, dövlətçiliyin məhv olmaq təhlükəsi ilə qarşılaşdığı bir dövrdə yaradılan Yeni Azərbaycan Partiyası müstəqillik tariximizdə yeni səhifədir.*

# Putin Nikolun cavab verməsini gözləmədi!

7



*Rusiyanın Vladivostok şəhərində keçirilən Şərq iqtisadi forumunda maraqlı məqam yaşanıb. SİA xəbər verir ki, Rusiya prezidenti Vladimir Putin rus biznesinin Ermənistana, eləcə də digər Avrasiya İqtisadi İttifaqına üzv olan ölkələrə köçmələri qərarlarına normal münasibət bəslədiyini açıqlayıb.*

## Yeni tədris ili, yoxsa yeni tıxac problemi?



7

## "Sülh razılaşması olmasa, Azərbaycan qalan əraziləri güc yolu ilə götürəcək"



7



## Tomas Tuhel "Çelsi"dən qovuldu!

*Londonun "Çelsi" futbol klubu baş məşqçisi Tomas Tuheli istefaya göndərib. Bu barədə İngiltərə klubunun rəsmi saytı məlumat yayıb.*

16

## Laçın yolunda sərhəd zastavası quruldu: Kəlbəcərdə 2 erməni təxribatçısı saxlanıldı!




## Bu ölkədə 700-dən çox uşaq acından öldü...



16

# Brüssel görüşü: kim nə istəyir?



***Ötən ayın son günləri yaddaşlarda Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin araçılığı ilə növbəti görüşün keçirildiyi gün kimi qaldı. Bəzən sual verilir, bu görüşlər əvvəlkilərdən nə ilə fərqlənir, formatı dəyişən bu görüşlər yenəmi adət halını alacaq, görəsən ATƏT-in Minsk qrupunun yerini Aİ tutmayıbmı, nəticə fərqli olacaqmı və s., və ilaxır. Qeyd edək ki, ümumiləşdirilmiş bu suallar da haqlı verilir. Atalar məsəlidir, deyir "ilan vuran ala çatıdan qorxar". Azərbaycan cəmiyyətində beynəlxalq təşkilatlara, aradüzəldənlərə, vasitəçilərə bir o qədər də inam qalmayıb. Ona görə də hər ortaya durulana inanmırlar. ATƏT-in Minsk qrupu və onun həmsədrləri 25 il regiona boş-boşuna ayaq döydülər, münaqişənin həlli ilə bağlı prinsiplər çeşidli olsa da, yalnız işğalçı dövlətin maraqlarını təmin edən təkliflər səsləndi, işğalçı ilə işğala məruz qalan arasında fərq qoyulmadı…***

ANALİZ

Budəfəki görüş son 3 görüşdən fərqli bir cəhəti ilə fərqlənməsə də, aparılan danışıqların məzmunundan, görüşdən sonra mətbuata verilən açıqlamalardan da görünürdü ki, məzmun və məna başqadır. Dövlətimizin başçısı İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan görüşdə təşkilatçının tərəfsiz, qərəzsiz olmasını, beynəlxalq hüququ olduğu kimi qəbul etməsini mühüm factor kimi qəbul etmək lazımdır. Bütün danışıqlarda bunun çox böyük önəmi var. Məhz bu səbəbdən Azərbaycan da bu formata üstünlük verir.

Görüşdən sonar Şarl Mişelin keçirdiyi mətbuat konfransında verdiyi açıqlamalardan da görünürdü ki, əldə edilən nəticələr də əvvəlkilərdə köklü şəkildə fərqlənir. Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı məsələdə razılığın əldə olunması, 26 noyabr 2021-ci il tarixli Soçi Bəyanatına uyğun olaraq, aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının təşkil edilməsinin razılaşdırıldığı yeni xəbərlər sırasındadır və irəliyə atılmış böyük addın sayıla bilər. Birgə Sərhəd Komissiyasının mandatına Ermənistan və Azərbaycan arasında ikitərəfli sərhədin delimitasiyası, sərhəd xətti boyunca və onun yaxınlığında sabit təhlükəsizlik vəziyyətinin təmin edilməsi daxildir.

Əslində Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla sərhədlərin delimitasiya və demarkasiya prosesinə başlanması təşəbbüsü ilə çıxış etmişdi, hətta Soçi görüşündə də bununla bağlı razılaşma olmuşdu, amma qarşı tərəfin qeyri-ciddi davranışı, konstruktivlikdən uzaq addımları prosesə zərər vurdu. Bu da səbəbsiz deyildi. Əvvəla Ermənistan hakimiyyətinin başı zatən məğlubiyyət acısını həzm etməyə məşğulkən daxili proseslər də Paşinyan kabinetinin əlehinə cərəyan edirdi. Üstəlik hakimiyyətin müstəqil siyasət yürüdə bilməməsi, xarici təsirlərdən asılı olması konkret fikirlər səsləndirməyə, reallığı qəbul etməyə mane olurdu. Ona görə də ilk görüşlər sanki tanışlıq xarakteri daşıyırdı, inam və etimad sınağa çəkilirdi.

Vasitəçiliyin kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq baş tutan hər görüşdə irəliyə çətinliklə də olsa addımlar atıldı. Son görüş sayca yeddinci idi. Və hər görüş sanki Ermənistanı yeni təkliflərə hazırlayırdı. Beləliklə, Brüssel görüşü sülhə doğru iri bir addımın atılması ilə yadda qaldı. Bəs Ermənistan necə, bütün bu təkliflərdən, müzakirələrdən sonra reallığı qəbul etməyi düşünürmü, yoxsa yenə də manipulyasiya metodunu işə salıb? Üzdə razılıq əlamətlərini büruzə verir, arxada daxili auditoriyaya hesablanmış gedişlər edir? Nə deyirik, etsin, amma əldə eilən razılaşmaya xələl gətirəcək addımlardan çəkinsin. Əgər müxalifətdən qorxursa, üzərinə götürdüyü yükün altında çapalayırsa və bunu gizləməyə, faş etməməyə şüurlu şəkildə çalışırsa, yenə bir söz demirik, əsas razılaşmaya dönük çıxmamaqdır.

Brüssel görüşü həm də Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanması üçün texniki məsələlərin həllinə start verilməsi kimi də qeyd etmək olar. Həm də Brüssel görüşündə əvvəlki format da yox idi. Yeni görüşdə XİN başçıları və Ermənistanın təhlükəsizlik şurasının sədri, Azərbaycan Prezidentinin köməkçisinin də iştirakı təmin edilmişdi ki, bu da sənədlərin hazırlanması üçün konkret addımların atılacağına işarə idi. Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklifin qəbulu və bunun əsasında danışıqların aparılması o demək idi ki, sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür.

Brüssel görüşündə həm də Ermənistan və Azərbaycan arasında, eləcə də bütövlükdə Cənubi Qafqazda nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması məsələsi müzakirə edilib. Şarl Mişel dəmir yolu xətlərinin bərpası istiqamətində atılan addımları alqışlasa da, eyni zamanda Ermənistan və Azərbaycanı avtomobil yollarının bərpası üçün effektiv həll yolları tapılması üçün cəhdlər edilsə də, bu nəqliyyat infrastrukturunun bütün region ölkələri üçün böyük əhəmiyyət daşıdığı barədə silsilə arayışlar verilsə də Ermənistan tərəfi hələ də susmaqda, tərəddüd içində olduğunu büruzə verməkdədir. Sanki bu ölkənin mizan-tərəzisi itib, "dəmir yumruq"dan hələ də ayılmayıb. Bütün müharibələrin sonunda bir məğlub, bir də qalib tərəf olur. Azərbaycan 30 illik işğala son qoydu, hərbi yolla torpaqlarını Ermənistan silahlı qüvvələrinin caynağından zorla çəkib qopardı. Danışıqlarda vasitəçi olan Minsk qrupu ilə birgə Qarabağın status da "cəhənnəmə" göndərildi.

Şarl Mişelin Bəyanatında da bu vurğular da aydın sezilirdi. Bəyanatda "Dağlıq Qarabağ" ifadəsinin yer almaması, ATƏT-in Minsk qrupunun həmsədrlik institutunun adının keçməməsi də mühüm məqamlardandır. Azərbaycan Prezidenti "Dağlıq Qarabağ" adlı ərazi vahidinin olmadığını dəfələrlə vurğulayıb. Deməli, proses Azərbaycanın müəyyənləşdirdiyi gündəm üzrə inkişaf edir. Digər biir diqqətçəkici məqam isə Brüssel görüşündə və Aİ Prezidentinin Bəyanatında son vaxtlar Fərrux kəndi ətrafında yaşanan gərginliyə toxunulmamasıdır. Buradan belə nəticə çıxarmaq olar ki, Avropa İttifaqı da, onun lideri də Qarabağda baş verənlərin artıq Azərbaycanın daxili işi kimi qəbul edir.

4 saat yarımdan artıq davam etmiş Brüssel görüşü belə bir reallığı da bizə çatdırdı ki, Avropa İttifaqının vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar mexanizmi, formatı yarandı. Əslndə belə də olmalıdır. Birbaşa danışıqlarda tərəflər qaranlıq qalan məsələləri vasitəçilərsiz həll edə biləcəklər. Minsk qrupunun həmsədrləri isə həddindən artıq primitiv danışıq format seçmişdilər. Bir mövzu, yaxud sorğunun cavabının qarşı tərəfdən alınması üçün əvvəlcə, həmsədrlər bir araya gəlir, sonar tərəflərin XİN təmsilçiləri məşvərətə toplanır və daha sonra prezidentlər vasitəçilərlə birgə formal görüş keçirib işlərini bitmiş hesab edirdilər. Bu da həm vaxt aparırdı, həm də effektsiz iş alınırdı. Danışıqların bu platformaya keçirilməsi Azərbaycan üçün də məqbuldur. Ona görə ki, Avropa İttifaqı qərəzsiz tərəfdir, üstəlik də Azərbaycanın və Aİ-nin bir-birinə qarşılıqlı etimadı var.

Bəs Ermənistanın hərəkətlərinə rəğmən, demək olarmı ki, İrəvan adekvat addımlar atacaq, reallığı dərk edəcək və ona təklif olunanları səmimi qəbul edəcək. Hadisələrin gedişi göstərir ki, hələlik Ermənistandan bu addımın işartılarını görmürük, sanki bu ölkəni yalnız zorla, məcburən sülh prosesinə qoşmaq lazımdır, başqa yanaşmanı qəbul etmir. Bu gün Azərbaycanın da, Avropa İttifaqının da qarşısında duran ən vacib məsələ Ermənistanın Brüssel razılaşmalarından yayınmamasıdır. Çünki bu ölkə əvvəllər də belə addımlar atıb, bir növ öyrəncəlidir

Əliyev-Mişel-Paşinyan görüşü istisnasız olaraq Azərbaycan diplomatiyasının növbəti qələbəsi hesab edilməlidir. Habelə, Brüssel görüşündə ümumiyyətlə həmsədrlər instititutuna şans verilməməsi ömrünü başa vurmuş bu təsisatın dirçəldilməsi istiqamətində uğursuz səylərə də tutarlı cavab oldu. Proses Prezident İlham Əliyevin iradəsinə uyğun, Azərbaycanın irəli sürdüyü 5 prinsip daxilində, milli maraqlarımız tam şəkildə təmin olunmaqla inkişaf etməkdədir. Ermənistan reallıqları qəbul etməli, bölgə dövlətləri arasında münasibətlər bu reallıqlar əsasında qurulmalıdır və başqa çıxış yolu yoxdur, çıxış yolu Azərbaycanla hesablaşmaqdır. Əks təqdirdə bu ölkə yenə də acınacaqlı duruma düşəcək. Avqustun 3-də keçirilən "Qisas" əməliyyatı ilə Azərbaycan bir daha göstərdi ki, heç bir halda güzəştə getməyəcək, təxribatlara da sərt və qətiyyətli cavab verəcək.

**V.VƏLİYEV**

***Azərbaycan tarixinin ictimai-siyasi vəziyyətinin çətin və gərgin, ciddi sınaqlara məruz qaldığı zamanda, özbaşınalığın, xaos və anarxiyanın hökm sürdüyü, dövlətçiliyin məhv olmaq təhlükəsi ilə qarşılaşdığı bir dövrdə yaradılan Yeni Azərbaycan Partiyası müstəqillik tariximizdə yeni səhifədir. Belə bir dövrdə ictimai-siyasi səhnədə meydana gəlmək və ölkəmizin müqəddəratında rol oynamaq, tənəzzüldən tərəqqiyə doğru inamla irəliləmək əlbəttə ki, çətin və şərəfli bir məramın reallaşması deməkdir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Əgər o vaxt Yeni Azərbaycan Partiyası yaranmasaydı və Azərbaycan xalqı növbəti dəfə öz müdrikliyini göstərib Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, ölkəmizin inkişafı tam başqa istiqamətdə gedə bilərdi. Hansı istiqamətdə gedə bilərdi? Bunu bu gün biz özünü müxalifət adlandıran elementlərin hərəkətlərində görə bilərik. Əgər onlar iqtidarda qalsaydı, bəlkə də Azərbaycan dünya xəritəsindən çoxdan silinmişdi".***




# YAP ölkənin siyasi mübarizələr tarixində yeni dönüş nöqtəsi oldu!

30 il bundan əvvəl yaradılan və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin olan yol keçib. 1992-ci ilin noyabr ayının 21-də yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynadı. 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos və anarxiya hökm sürürdü. Həmin ağır dönəmlərdə ölkənin taleyinə biganə olmayan ziyalılar və sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq, Ulu Öndər Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən, çətinliklərdən çıxarması üçün, Ondan kömək istəyirdilər. Həmin illər Azərbaycan üçün ən ağır və məsuliyyətli dövr idi. Həmin vaxtlar dövlət müstəqilliyinin qorunub-saxlanması üçün qətiyyətli bir şəxsin ölkə rəhbərliyinə gətirilməsi zərurəti yaranmışdı. Elə həmin vaxtlar 91 nəfər Azərbaycan ziyalısı Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlamışdı. Bu müraciət, bütövlükdə, Azərbaycan xalqının çağırış ifadəsi idi. Həmin müraciətdə Heydər Əliyevin yeni yaradılacaq partiyaya - Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi xahiş edilirdi. Bu, heç də asan bir məsələ deyildi. Azərbaycanda köklü islahatlar aparılmalı, xalqın pozulmuş, tapdalanmış hüquqları bərpa edilməli və güclü vətəndaş cəmiyyəti qurulmalı idi. Bütün sahələrin inkişafı istiqamətinə çox ciddi addımlar atılmalı, dövlətçiliyin bərpası və qorunub-saxlanması yükünü öhdəsinə götürməyi bacaran qətiyyətli bir fenomenal şəxsiyyətə böyük ehtiyac var idi.

## "CƏMİYYƏTİMİZİN BÜTÜN ÜMİDLƏRİ YENƏ DƏ HEYDƏR ƏLİYEVİN DÜHASI İLƏ BAĞLI İDİ"

Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib-hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə və bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Ulu Öndər Heydər Əliyev ola bilərdi. Ona görə də, 1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransının keçirilməsi təsadüfi hadisə deyildi, bu, xalqın istəyinin təzahürü idi. Naxçıvanda yaradılan YAP-ın təsis konfransında Ümummilli Lider Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Cənab Prezident İlham Əliyevin vurğuladığı kimi, təsis konfransının Naxçıvanda keçirilməsi onunla əlaqədar idi ki, o vaxtkı iqtidar bu tədbirin Bakıda keçirilməsinə imkan yaratmadı. Qısa zaman kəsiyində, YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi.

YAP qısa bir zaman kəsiyində hakimiyyətə gəldi və iqtidar partiyasına çevrildi. 30 illik tarixi yolda Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu YAP ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayır.

Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünki əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. "1993-cü ilin yayında -Azərbaycanda vətəndaş müharibəsi başlanan dövrdə cəmiyyətimizin bütün ümidləri yenə də Heydər Əliyevin dühası ilə bağlı idi. O vaxt xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa zaman kəsiyində vəziyyəti sabitləşdirdi və bu, imkan verdi ki, ölkəmiz inkişaf yoluna qədəm qoysun. O ildən bu günə qədər Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedir", - deyə Cənab Prezident bildirib.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Dahi Şəxsiyyət Heydər Əliyevin 1993-cü il prezident seçkilərində xalqın səsini qazandı. Bundan sonra Azərbaycan xalqı, artıq tam əmin oldu ki, hakimiyyət sükanı etibarlı əllərdədir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışı və qətiyyətli addımları nəticəsində, çox keçmədi ki, ölkə böhran vəziyyətindən çıxarıldı. Bütün sahələrin inkişafına xüsusi diqqət yetirildi. Xalqın sabahına hesablanmış mütərəqqi siyasət həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında və beynəlxalq əlaqələrdə dönüş yarandı.

## "ONUN DƏMİR İRADƏSİ, XALQIN ONA OLAN SEVGİSİ, RƏĞBƏTİ AZƏRBAYCANI, BAX, BU MÜSTƏQİLLİK YOLUNA ÇIXARIBDIR"

Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci ildə Konstitusiyasının qəbul edilməsinə, Şərqlə Qərbi birləşdirən Qədim İpək Yolunun bərpa edilməsinə və digər mühüm əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olundu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qoruması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

*Ardı Səh. 4*

# YAP ölkənin siyasi mübarizələr tarixində yeni dönüş nöqtəsi oldu!

Əvvəli-Səh-3

Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Dahi Liderin düşünülmüş və müdrik siyasəti nəticəsində, qısa zamanda, Azərbaycan iqtisadiyyatı inkişaf etdi. Bununla da, Azərbaycanın iqtisadi tərəqqisi başlanmış oldu.

Dövlət başçısının vurğuladığı kimi, Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi:"Biz bu ideyalara bu gün də sadiqik. Bütün siyasi mübarizələri sivil qaydalarla aparırıq və bütün siyasi məsələlərdə daim qələbə qazanırıq". YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantına çevrildi. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Sözsüz ki, partiyanın yüksək nüfuzu, bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti ilə bağlıdır. Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "O ağır vəziyyətdə, məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - Onun dəmir iradəsi, xalqın Ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik".

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazanmışdır. Son 19 ildə görülən işlər bunu deməyə əsas verir. Möhtərəm Cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıraları getdikcə daha da artmaqdadır. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına olan dərin inamdan və ehtiramdan irəli gəlir. Bu gün Yeni Azərbaycan Partiyasının qarşısında yeni vəzifələr durur. Bu vəzifələrin ən başlıcası Ümummilli Liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onun regionun və dünyanın qüdrətli dövlətləri sırasında liderliyini qorumaqdadır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qətiyyətli və uğurlu siyasət Azərbaycanı güclü dövlətə çevirib. Yeni Azərbaycan Partiyası bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir və bu, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur. Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilmişdir. Yarandığıdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçmişdir".

## "AZƏRBAYCANIN TƏŞƏBBÜSLƏRİ İLƏ REALLAŞAN BİR ÇOX LAYİHƏLƏR BÖLGƏYƏ YENİLİK GƏTİRDİ"

Vurğulamaq yerinə düşər ki, YAP-ın VII Qurultayı partiyadaxili islahatlar baxımından böyük önəm kəsb edir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev YAP-ın VII Qurultayının keçirilməsinin ölkədə və regionda yaranmış yeni reallıqlarla bağlı olduğunu bildirmişdir:"Belə ki, Vətən müharibəsi nəticəsində ölkəmizin ərazi bütövlüyü təmin edilib, eləcə də, ötən dövrdə beynəlxalq müstəvidə bir çox nailiyyətlər əldə etmişik. Azərbaycanın təşəbbüsləri ilə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Azərbaycanın uğurlu enerji, nəqliyyat siyasəti bölgədə və geniş mənada, Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Azərbaycanın tərəfdaşlarının sayı artdı, beynəlxalq aləmdə mövqeləri gücləndi. İkinci Qarabağ müharibəsinin nəticələri isə bölgə üçün yeni reallıqlar, yeni əməkdaşlıq imkanları yaradıb. Müharibənin nəticələri ölkəmizin yeni dövrə qədəm qoyması baxımından yeni imkanlar açıb".

## "BİZ ƏN MÜASİR TƏCRÜBƏNİ AZƏRBAYCANDA BÜTÜN SAHƏLƏRDƏ TƏTBİQ ETMƏLİYİK"

Yeni idarəetmə modelini özündə ehtiva edən YAP-ın VII qurultayında qəbul olunmuş qərarlar hakim partiyanın iqtidar-xalq modelinin və milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi. Qurultayda partiyanın daha təkmil idarəetmə forması müəyyən olundu. Xüsusilə də, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini kimi fəaliyyəti YAP-ın nüfuzunun və gücünün, Yeni Azərbaycan Partiyasına ictimai dəstəyin daha da artması baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın partiyanın Sədrinin birinci müavini təyin edilməsi yeni mərhələdə Yeni Azərbaycan Partiyasının inkişafına təkandır və bu partiyanın və ölkəmizin yeni nailiyyətlər əldə etməsində mühüm əhəmiyyət daşıyır.

Partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması istiqamətində mühüm qərarlar qəbul olundu. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Həmin dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapıb. Bütövlükdə, sözügedən addımlar partiya həyatında daha çevik və effektiv idarəetmə mexanizminin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

Bir neçə siyasi partiyanın YAP-a qoşulması fonunda Yeni Azərbaycan Partiyası milli həmrəyliyin təcəssümünə çevrilib. Bu reallıq yeni mərhələdə həm partiyanın, həm də ölkəmizin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Onu da vurğulamaq yerinə düşər ki, siyasi partiyaların YAP-a qoşulması həm də ölkəmizdəki siyasi dialoq mühitinin göstəricisi və nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev Qurultayda çıxışı zamanı bildirdiyi kimi, "Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın".

Sürətlə dəyişən reallıq və müəyyən olunan yeni obyektiv amillər islahatların davamlı olaraq aparılmasını vacib vəzifə kimi müəyyən edir. Bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir. Heç şübhəsiz ki, YAP-ın fəaliyyət mexanizminin əsaslarını təşkil edən mühüm prinsiplərdən biri güclü dövlət anlayışıdır. Bu güclü dövlət anlayışı isə həm dövlətin iqtisadi qüdrətinin artırılmasını, həm də vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasını özündə ehtiva edir. Güclü iqtisadiyyatı, dinamik inkişafı, ordu qurculuğu sahəsində əldə olunan nailiyyətlər qısa bir zamanda Azərbaycanın şanlı Qələbəsi ilə başa çatdı. 44 günlük Vətən müharibəsində xalqımızın milli mübarizə ruhu, sarsılmaz həmrəyliyi, dövlətimizin gücü Azərbaycanın ermənilər tərəfindən 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələndi. Xalqımız Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. Dövlət başçısı Sərkərdəlik məharəti nümayiş etdirərək Qarabağın xilaskarı kimi tarixə adını həkk etdi. Bu Zəfərlə həm tarixi ədalətin, həm də beynəlxalq hüququn bərpasına müvəffəq olduq və dövlətimizin gücü bir daha dünyaya bəyan edildi.

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi "YAP dünənin, bugünün və gələcəyin partiyasıdır" fikirləri artıq gerçək həyatda sübut edilmişdir.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan və İspaniya XİN arasında anlaşma memorandumu imzalanıb



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniyaya rəsmi səfəri çərçivəsində İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq naziri Xose Manuel Albares Bueno tərəfindən qəbul edilib. Bu barədə S?A Azərbaycan Xarici İşlər Nazirliyinə istinadən xəbər verir.

Nümayəndə heyətinin qatılımı ilə geniş tərkibli görüşdə nazirlər ölkələrimiz arasında bir sıra istiqamətlər üzrə, o cümlədən iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, enerji, elm-təhsil, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu il diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu, qarşılıqlı yüksək səviyyəli səfərlərin və siyasi səviyyədə dialoqun önəmli olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə post-münaqişə dövründə mövcud olan vəziyyət, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, minaların təmizlənməsi, məcburi köçkünlərin təhlükəsiz şəraitdə evlərinə geri dönmələri üçün görülən işlər, Azərbaycanın bölgədə sülh quruculuğu istiqamətində atdığı addımlar barədə məlumat verib. İşğaldan azad edilmiş ərazilərdə turizm, alternativ enerji, kənd təsərrüfatı və mədən sənayesi sahəsində geniş işlər görüldüyü və İspaniya şirkətləri ilə geniş əməkdaşlıq perspektivləri olduğu bildirilib.

Nazir Xose Manuel Albares Bueno İspaniya şirkətlərinin Azərbaycanda sərmayə qoyuluşunda maraqlı olduqlarını, turizm, ticarət və iqtisadiyyat sahəsində geniş əməkdaşlıq perspektivlərinin mövcudluğunu vurğulayıb. Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığı, enerji və tranzit sahəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparılıb, İspaniyanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafını dəstəklədiyi, növbəti ildən təşkilata sədrlikləri dövründə bu prosesdə daha yaxından iştirak edəcəkləri qeyd edilib. Albares Bueno Avropa İttifaqının bölgədə vasitəçilik səylərinə dəstək verdiklərini, Azərbaycanla Ermənistan arasında sülhün təmin olunması istiqamətində töhfə verməyə hazır olduqlarını qeyd edib. Tərəflər, həmçinin beynəlxalq təşkilatlar və çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Ermənilər Laçında mülki şirkətə məxsus ekskavatoru atəşə tutub

Sentyabrın 7-si saat 08:10-dan 12:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bu barədə S?A-ya Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Eyni zamanda, qeyd olunan istiqamətdə bölmələrimizin təminat yollarının çəkilməsi məqsədilə yol işləri aparan mülki şirkətə məxsus texnika da atəşə məruz qalıb. Şirkətin texnikasına zərər dəysə də, xəsarət alan olmayıb. Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarının qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb. Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.



# "ADEX" və "Securex Caspian" sərgiləri: müdafiə sənayemizin uğurlu perspektivləri



*Bu kimi mühüm tədbirlər müzəffər Ordumuzun Vətən müharibəsindəki Qələbəsində müstəsna rol oynamış müasir silahlarımızın əhəmiyyətini, ölkəmizin hərbi sənaye kompleksinin qüdrətini vurğulamaq üçün xüsusi önəm kəsb edir*









IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün mühüm platformaya çevrilməsi ilə yanaşı, Azərbaycanın dünya ölkələrinin müdafiə sənayeləri arasındakı yerini və rolunu möhkəmləndirir.

Əbəs deyil ki, "ADEX" və "Securex Caspian" sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb və sərgilərin keçiriləcəyi üç gün ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçirilir.

## Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin stendləri ən çox baxılanlar sırasındadır

Bakıya səfər etmiş dünyanın aparıcı hərbi sənaye ölkələrinin nümayəndələri Azərbaycanın hərbi-sənaye kompleksinin gücü və qüdrəti ilə yaxından tanış olublar. Belə ki, "ADEX" sərgisi müzəffər Ordumuzun Vətən müharibəsindəki Qələbəsində müstəsna rol oynamış müasir silahlarımızın əhəmiyyətini, ölkəmizin hərbi sənaye kompleksinin qüdrətini vurğulamaq üçün xüsusi önəm kəsb edir.

O cümlədən, sərginin iştirakçıları arasında Azərbaycanla yanaşı, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri də var. Habelə iştirakçılar arasında sərgidə öz hərbi məhsullarını nümayiş etdirən ilk ölkələr də var. Artıq "ADEX"də Türkiyə, Rusiya, İsrail, Pakistan, Qazaxıstan, İran və digər ölkələr milli stendləri ziyarətçilərin ixtiyarına buraxılmışdır.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin stendləri ən çox baxılanlar sırasındadır. O cümlədən, Türkiyə və İsrail stendləri də diqqət mərkəzində saxlanılmaqdadır. Ziyarətçilər Azərbaycanın müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin mövcud və artmaqda olan imkanları ilə yanaşı, digər ölkələrin də hərbi-sənaye və müdafiə xarakterli məhsulları ilə tanış olurlar.

"ADEX"də ən müasir silah növlərinin genişmiqyaslı nümayişi Silahlı Qüvvələrin texniki cəhətdən yenidən təchiz olunmasına töhfə verəcək

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanış olub. Məlumat olaraq bildirilib ki, müasir silah və texnikanın nümayiş etdirildiyi bu genişmiqyaslı tədbir pandemiyanın yaratdığı məcburi fasilədən sonra yenidən keçirilir. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Zəfərdən sonra ilk dəfə təşkil olunur.

Daha bir əhəmiyyətli məqam budur ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) də sərgidə fəal iştirak edir. Fəaliyyət illəri ərzində ANAMA ölkə daxilində və xaricində bir sıra layihələr həyata keçirib. Agentlik hazırda işğaldan azad edilən Qarabağda mina və partlamamış hərbi sursatlardan təmizləmə əməliyyatları həyata keçirir.

Artıq indidən də bəllidir ki, "ADEX"də ən müasir silah növlərinin genişmiqyaslı nümayişi Silahlı Qüvvələrin texniki cəhətdən yenidən təchiz olunmasına töhfə verəcək, konstruktiv ünsiyyətə, təcrübə mübadiləsinə, hərbi-texniki sahədə yerli və xarici mütəxəssislər arasında səmərəli əlaqələrin qurulmasına şərait yaradacaq.

**Rövşən RƏSULOV**



# Ermənistan üçün TARİXİ ŞANS

***Bütün dünya görür və qəbul edir ki, Ermənistan çox zəif, gücsüz bir dövlətdir və bu dövlətin də başında zəif bir hökumət var, hansıki doğru qərarlar qəbul etməkdə belə acizdir. Görünür ki, hakimiyyətdə olan Nikol Paşinyan və onun komandası çox cılız, yox dərəcəsində olan, elektoratı sıfır həddində olan müxaliətdən çəkinir, hətta bərk qorxur. Əks halda, Ermənistan hakimiyyəti ən azından, imzaladığı 2020-ci il 10 noyabr tarixli razılaşmaya uyğun addımlar atmaq cəsarətində olduğunu nümayiş etdirə bilərdi, amma bunun əksini müşahidə etməkdəyik.***

Azərbaycanın qələbəsi, əldə etdiyimiz Zəfər Ermənistanı diz çökməyə vadar etdi və çıxılmaz vəziyyətdə, məcburiyyət qarşısında qalan məğlub ölkə 2020-ci ilin 10 noyabr tarixində kapitulyasiya sənədinə imza atmaqla, təslim olmaqla, razılaşmaya getməklə tamamilə məhv olmaq təhlükəsindən yaxa qurtara bildi. Çox böyük itgilərlə qarşılaşan, bütün imkanları tükənən, Azərbaycanla savaşa cəmi 44 gündən artıq davam gətirə bilməyən Ermənistanın çıxış yolu qalmadığından razılaşmanı təcili şəkildə qəbul etdi və bu vəziyyət erməni cəmiyyəti üçün göydəndüşmə oldu, çünki bu, yeganə xilas yolu idi. Erməni xalqının artıq avantüristlərin işğalçı siyasətinə qurban vermək, başqalarının torpaqlarında döyüşərək səbəbsiz yerə həlak olmaq üçün əsgər göndərməyə gücü qalmamışdısa, deməli sözügedən saziş yeganə çıxış yolu, xilas sayılırdı ki, mövcudluğu tarixində Ermənistan ilk dəfə olaraq həmin doğru addımı atdı. Buna baxmayaraq, müharibə bitdikdən sonra yenə də həmin o avantüristlər öz mənafeləri naminə, hansısa çirkin niyyətlərini yeritmək məqsədi ilə kütləni, Ermənistan ictimaiyyətini qızışdırmaq üçün bu dəfə də revanşist fikirlərlə ortaya atıldı, cəmiyyəti çaşdırmaq, azdırmaq üçün fəlaliyyətə keçdi, ölkə hakimiyyətini də hədəfə aldı və qeyd etdiyimiz kimi, zəif olan Ermənistan hakimiyyəti də bundan ehtiyatlanaraq, hətta qorxaraq, qətiyyətli addımlar atmaqda tərəddüd etdiyini nümayiş etdirdi. Buna baxmayaraq, yəni Ermənistan hakimiyyətinin hansı vəziyyətdə olub-olmamasından, bu hakimiyyətin daxildəki vəziyyətdən necə qorxmasından asılı olmayaraq, özünün könüllü şəkildə, hətta tez-tələsik imzaladığı sənədə uyğun hərəkət etməsi, yəni razılaşdığı bütün şərtləri yerinə yetirməsi tələb olunur və Ermənistan bir dövlət olaraq beynəlxalq hüquq qarşısında buna görə cavabdehdir. Bir sözlə, vəziyyətin necə olmasından asılı olmayaraq, təkcə Azərbaycan tərəfi deyil, bütün dünya Ermənistandan razılaşmaların ruhuna uyğun addımlar atmasını nəinki gözləyir, hətta tələb edir və bu məsələdə də ölkəmiz haqlıdır, hansıki bu haqqı da qlobal müstəvidə müdafiə olunur.

”Biz sülh sazişinin əsas götürülməli olduğu 5 əsas prinsip irəli sürdük və Ermənistan onları qəbul etdi”, deyə Azərbaycan Prezidenti cənab İlham Əliyev İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə müsahibəsində vurğulayıb. Bu sözlər Ermənistan üçün növbəti bir xatırlatma və hətta mesajdır. Eyni zamanda, həmin ifadələr Ermənistan rəhbərliyinin Azərbaycanın şərtlərini qəbul etməyə məcbur olacağına əmin olan bir dövlət rəhbərinin, siyasi iradə sahibinin, Ali Baş Komandanın qətiyyəti idi. Bəli, Azərbaycan Prezidenti dünyaca məşhur olan mətbuat səhifəsinə bu açıqlamanı çox incə bir şəkildə verdi və Ali Baş Komandanın verdiyi açıqlama nəinki Ermənistan hakimiyyəti, bütövlükdə erməni cəmiyyəti üçün xəbərdarlıqdır və zəif hakimiyyəti olan zəif bir dövlətin hər bir vətəndaşı belə bu xəbərdarlığın mahiyyətini çox yaxşı başa düşür, çünki ölkə rəhbərimizin qətiyyətinə, siyasi iradəsinə bələddirlər.




Qarşılaşdığı problemə, arzuolunmaz vəziyyətə görə, Ermənistan cəmiyyətinin timsalında cəmiyyətin yalnız mövcud hakimiyyəti günahlandırması düzgün yanaşma deyil. Ermənistan hakimiyyətinin, Paşinyanın günahsız olduğu qənaətində əsla deyilik və bilirik ki, bu hakimiyyətin, erməni baş nazirin yetərincə günahları, səhvləri var, amma bu ölkənin düşdüyü çətin duruma, qarşılaşdığı problemə görə həmin ölkənin hazırki hakimiyyəti də yeganə günahkar deyil. İşğalçı ölkənin qarşılaşdığı problemlərin kökündə məhz yürüdülən işğalçılıq siyasəti, başqalarına məxsus olana göz dikmək, beynəlxalq norma və prinsipləri hesaba almamaq, eləcə də avantüristlərin, manipulyatorların öz mənafeləri üçün, çirkin niyyətlərini reallaşdırmaları üçün erməni xalqını alət etməsidir. Bu zamana qədər erməni xalqı alət olaraq istifadə edilib və vəd edilən qızıl dağlara aldananlar çirkin niyyətlilərin qurbanına çevrilib, hansıki düşdükləri acınacaqlı durum da məhz buna görədir.

Başlarına gələnlərə görə yalnız Nikolu günahlandırmaq, onu hədəfə almaq çox asan, bəsit yanaşmadır və yanlışlıqdır. Ermənistanın indiki, son dərəcə zəif və qibtə olunmaz vəziyyətə düşməsinin səbəbini anlamaq daha doğru, daha düzgündür. Doğru, düzgün olan, əlbəttə ki, Ermənistanın onilliklər ərzində tutduğu və getdiyi yanlış yolu dərk etmək, bundan çəkinməkdir. Ötən əsrin sonlarında, 90-cı illərin əvvəllərində Azərbaycanla müharibə aparan və ölkəmizi məğlub etdiyini düşünənlər böyük yanlışlığa yol verdilər. Hətta, özləri özlərini əmin etdilər ki, guya əldə etdikləri qələbələri əbədidir və Azərbaycan məğlubiyyətlə barışıb. Bəllidir ki, o dövrün qarışıqlıqları, xaos, Azərbaycanda səriştəsiz hakimiyyətin, yaxud hakimiyyətsizliyin olması erməni işğalçıları üçün münbit şərait demək idi və bundan istifadə edərək həmlə edən separatçılar torpaqlarımızın işğalına nail ola bildilər, amma bunun əbədi olmayacağını anlaya bilmədilər. Elə zənn etdilər ki, Azərbaycan öz torpaqlarını geri qaytaracaq qədər güclü ola bilməyəcək və belə düşünməkdə belə səhv etdilər. Bu zamana qədər erməni cəmiyyəti reallığı eşitməkdən və anlamaqdan imtina edərək reallıqlara deyil, illüziyalara meyl etdi və bunun səhv olduğu dərk edimədi. Dərk edilmədi ki, Azərbaycan doğru, düzgün siyasət yürüdəndə, Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi, uzaqgörənliyi, müdrikliyi ilə ”Əsrin müqaviləsi” imzalananda artıq Ermənistan uduzmuşdu və ölkəmizin Qələbə günü, Zəfər günü, onların isə məğlubiyyəti gözlənilirdi. İqtisadi və siyasi cəhətdən günü-gündən güclənən Azərbaycanın imkanlarını, qüdrətini Ermənistan düzgün qiymətləndirmədi və bunun onlar üçün hansı nəticələrə gətirib çıxarılacağını anlamaqda çətinlik çəkdi. Bu işğalçı ölkənin bütün hakimiyyətləri özlərini elə aparırdılar ki, sanki onlar üçün hansısa aydın və aşkar təhlükə yoxdur. Əslində, Ermənistan ictimaiyyətini, bütövlükdə erməni cəmiyyətini inandırdılar ki, guya orduları güclü və yenilməzdir, dünya onların tərəfindədir, Azərbaycan isə çox zəifdir. Bəli, yalan danışdılar və erməni cəmiyyəti onlara inandı. Bu yalana inanmaq da ermənilər üçün xoş, rahat və sərfəli göründü, necə ki, Nikol və onun komandasının dediklərinə, daha doğrusu uydurduqlarına inanmaqda da eyni dərəcədə rahatlıq hiss etdilər. Elə zənn etdilər ki, beli çantalı küçə nümayişçisinin qondardığı yalançı demokratiya və uydurduğu demokratiyanın qələbəsi iddiası Ermənistan üçün bütün demokratik dünyadan dəstəyin, bununla da təhlükəsizliyinin təminatıdır, amma bu baş vermədi. Əvvəla ona görə ki, Ermənistanda demokratiyadan əsər-əlamət yox idi və Paşinyan da xalqını demokratiya oyunu ilə aldadırdı. Bir növ, Qarabağ klanından fərqli olaraq, bu hakimiyyət də demokratiya komuflyajı geyinərək erməni xalqını alət etdi və bunu da bütün dünya, özlərinin dediyi kimi, demokratik dünya yaxşı gördü. Digər tərəfdən də bütün dünya Ermənistanın yanlış siyasət yürütdüyünün, işğalçılığı dövlət siyasətinə çevirdiyinin, beynəlxalq hüququn norma və prinsplərini tapdaladığının, haqsızlığının, qanunsuzluğunun şahidi idi və burada hansısa dəstəkdən söhbət belə gedə bilməzdi. Əksinə, Azərbaycanın haqlı tərəf olduğunu, BMT-nin 4 qətnaməsi də daxil olmaqla, bütün beynəlxalq hüquqi normalar təsdiq edirdi və ölkəmizin haqq işi uğrunda, tarixi ədalətin bərpası, bərqərar olması uğrunda mübarizəsinə qarşı gəlmək mümkünsüz idi və belə də oldu. Haqqın, ədalətin qələbəsi, Azərbaycanın qələbəsi labüd idi və Zəfər günü gözlənilən gün idi, hansıki bunu da Ermənistan tərəfinin anlamaması, dərk etməməsi, nəzərə almaması böyük səhvi sayılır.

Nəhayət, Ermənistanda vəziyyət necədir? İndi hər şeydə mövcud hakimiyyəti günahlandırmağın, hakimiyyət dəyişikliyini tələb etməyin mənası varmı? Ermənilər ölkədə hazırki hakimiyyəti dəyişməklə nəyi isə dəyişə biləcəklərmi? Bilməyəcəklər. Hakimiyyət dəyişikliyi heç nəyi dəyişməyəcək. Elə isə, hansı addımlar atılmalıdır? Hansı yol doğru yol hesab olunur? Əlbəttə ki, ilk növbədə ermənilər ən azından mövcudluqlarını qorumaq üçün aldadılaraq beyinlərinə yeridilən stereotipləri sındırmalı, aradan qaldırmalıdırlar. Ermənistan ərazi iddialarından əl çəkməli, işğalçılıq siyasətinə son qoymalı, imkanları və güclənməsi üçün normal qonşuluq siyasəti yürütməli, qonşu dövlətlərlə sülh şəraitində yaşamalıdır ki, bölgədə marginallaşmış vəziyyətdən çıxa bilsin. Belə olmasa, nəinki hansısa inkişafdan söhbət gedə bilməz, hətta məhv olmaqdan qurtulmaq belə ermənilər üçün möcüzə hesab oluna bilər.

Ermənistan üçün böyük imkan, tarixi bir şans var və bu ölkənin qurtuluşu qonşu ölkələrlə, xüsusən də bölgənin lider dövləti olan Azərbaycanla münasibətlərini normallaşdırmaqdan keçir. Sülh müqaviləsinin bağlanması ermənilər üçün yeganə xilas yoludur. Tarixi şans dedikdə də məhz bu nəzərdə tutulur. Belə bir imkandan istifadə edilməzsə, bu, Ermənistanın, bütövlükdə erməni cəmiyyətinin növbəti və bağışlanılmaz səhvi olar. Bu səhvin hesabı isə daha ciddi şəkildə sorula bilər və ola bilsin ki, belə bir səhv ermənilərin sonunu gətirər, Ermənistan dövlətini tarixin arxivinə yazar. Məhz tarixin arxivinə yazılmamaq üçün hazırda Ermənistanın sülh sazişi kimi tarixi bir şansı var və bundan, bu şansdan istifadə etməzsə, əvvəlki səhvləri qədər böyük səhvə yol vermiş olar.

***İnam Hacıyev***

TƏHLİL

# Qafqazın incisinə çevriləcək azad Şuşamız

*Müasir dövrün müharibəsini nümayiş etdirən Azərbaycan dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Zəfər qazanaraq 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi. "Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq.*

## *Dövlət başçısının Sərəncamı ilə Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpasına dövlət büdcəsindən 600,0 (altı yüz) min manat vəsait ayrılıb*



Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu" - deyə Prezident bildirmişdir. 2020-ci ilin noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan edərək: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deyə bildirməsi xalqımıza əvəzsiz sevinci yaşatmış oldu. Noyabrın 10-da isə Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Azərbaycan xalqı "dəmir yumruq" əməliyyatı ilə torpaqlarını işğaldan azad etdi. Müzəffər Ali Baş Komandan tərəfindən yüksək dəqiqliklə və vaxtında edilən siyasi-diplomatik gedişlər tariximizə qələbə yazdı.

Azərbaycan bu gün misli görünməmiş abadlıq-quruculuq işlərini uğurla davam etdirir. Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin, mədəniyyət nümunələrimizin bərpası üzrə layihələr həyata keçirilir.

### MƏRDİNLİ MƏHƏLLƏSİNDƏ YERLƏŞƏN BİNA İLKİN GÖRKƏMİNİ 80 FAİZƏ QƏDƏR İTİRİB

7 sentyabr 2022-ci il tarixində "Şuşa şəhərində Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezident Sərəncamı imzalayıb. Sərəncama əsasən, Şuşa şəhərində yerləşən Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın (Sadıqcanın) yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsə ilkin olaraq 600,0 (altı yüz) min manat vəsait ayrılıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva cari ilin mayın 10-da Şuşada olarkən Sadıqcanın vaxtilə yaşadığı evin bərpa işləri ilə tanış olublar. Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir. Sadıqcanın evində də bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirəcək. Dördbucaqlı plan quruluşu olan ev ikimərtəbəlidir. Bina Şuşaya xas memarlıq üslubunda inşa olunub.

Vurğulayaq ki, musiqiçinin doğulduğu ev vaxtilə bir mərtəbəli və iki otaqdan ibarət idi. Daha sonra, Mirzə Sadıq şöhrət qazanarkən, Şuşanın ən yaxşı küçələrindən birində üç mərtəbəli bir ev tikdirir və özü də bir neçə gün tikinti işində iştirak edir.

Azərbaycan mədəniyyətində, musiqi yaradıcılığında xüsusi yer tutan Sadıqcan milli-mənəvi dəyərlərlə köklənmiş, özünəməxsus xüsusiyyətləri, ənənələri, ifa gözəlliyi ilə fərqlənən Azərbaycan ifaçılıq sənətinin inkişafında öz sözünü deyən sənətkar olub.

### "QAFQAZIN BİRİNCİ TARZƏNİ"

Şərqin Konservatoriyası olan Şuşada yetişən böyük musiqiçilər sırasında Azərbaycanın tanınmış tarzənlərindən sayılan məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıq Mirzə Əsəd oğlunun da ismi var. Şuşa şəhərində anadan olub, boya-başa çatmış Sadıqcanı zəngin Şuşa mühiti böyük və təkrarsız sənətkar kimi yetişdirmişdir. Şuşa kimi bir mühitdə böyüyən Sadığın hələ uşaq yaşlarından incəsənətə, musiqiyə sonsuz həvəs göstərib.

Etiraf edək ki, Sadıqcanın tarzən kimi tanınmasında, Şuşada keçirilən musiqi məclisləri böyük rol oynamışdır. Sadıqcan şənliklərdə və musiqi məclislərində iştirak etməkdən başqa, Şuşa və Tiflisdə tamaşaların fasilələri zamanı konsert verməşdi. Sadıqcan həm kamançada, həm də tarda o dövrün məşhur xanəndələrini müşayiət edərmiş. Cənubi Qafqazda, Şərq dünyasında Sadıqcanı yaxşı tanıyırdılar.




Bu o demək idi ki, Şuşa məşhur bir şəhər idi. Bu şəhərin yetirmələri olan məşhur musiqiçilər nəsli onun hüdudlarından kənarda sevilirdilər. Öz dövründə "Qafqazın birinci tarzəni" kimi tanınan Sadıqcan tarın simlərində dəyişiklik etmiş, tarı təkmilləşdirərək ona cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Sadıqcan ilk dəfə tarı sinədə ifa etməyə başlayıb. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib. Mirzə Sadığın tardakı bu dəyişikliyi Şərq aləmində yenilik idi.

Sadıqcanın rekonstruksiya etdiyi tarında isə artırılmış simlərin vasitəsilə muğam sənəti daha da rövnəqlənmiş, harmonik həmahənglik nizamlandırılmışdır. Beləliklə, Sadıqcan tarın simlərinin sayını artırması ilə tarın solo aləti kimi geniş istifadə edilməsini, xüsusilə muğamın solo instrumental imkanını əldə etmişdir. Sadıqcan bir neçə muğamın yaradıcısı kimi də tanınır. Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Etim Segah", "Çoban Bayatı" yaranması Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlıdır. Azərbaycan bəstəkarı Əfrasiyab Bədəlbəyli yazırdı: "Əgər nəzərə alsaq ki, muğamların ifasında tar çalğı alətləri içərisində əsasdır, onda Mirzə Sadığın tarının son nəticədə Azərbaycan musiqi sənətinin inkişafında dönüş yaratdığını inamla deməək olar. Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onların ifadə vasitələri, təsir gücü və ifa üsulları yeni bir mərhələyə qalxmışdır. Mirzə Sadıq Azərbaycan musiqi tarixində yeni bir səhifə açmışdır".

Məhz Sadıqcandan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onun ifadə vasitələri, təsir qüvvəsi, ifa üsulu yeni bir pilləyə qalxdı. Sadıqcanın Azərbaycan musiqisi tarixində açdığı yeni səhifə, əslində bir məktəb idi.

Qarabağ münaqişəsi başlanmasından əvvəl, Şuşada Sadıqcanın evinin divarında Azərbaycan S S R Mədəniyyət Nazirliyi tərəfindən qoyulmuş xatirə lövhəsi var idi. Bakının Xətai rayonunda küçə onun adını daşıyır. İlyas Əfəndiyevin "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povesti tarzənə həsr olunub. 1997-ci ildə tar üzrə Azərbaycan Respublika müsabiqələri onun adını daşıyıb. Dövlətimiz tərəfindən hər zaman yaradıcılığına böyük diqqət ayrılmışdır. 2006-cı ildə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Sadıqcanın 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. 2007-ci ildə Azərbaycan Nazirlər Kabineti yanında Baş Arxivlər İdarəsi kollektivinin təşəbbüsü ilə Sadıqcan haqqında kitab nəşr olunub. 2008-ci ildə Bakının Beynəlxalq Muğam Mərkəzində Sadıqcanın 170 illik yubileyinə həsr olunmuş konsert keçirilmişdir.

Şuşa həqiqətən də, böyük sənət və sənətkarlar mərkəzidir. Tar ifaçılıq sənətinə yenilik gətirən sənətkarın yaratdığı məktəbdən yüzlərlə musiqiçilər nəsli bəhrələnmiş və onun sənət yolunun davamçıları böyük ustalıqla milli musiqimizə yeni rənglər və çalarlar gətirmişlər.Bu gün Qarabağımızda aparılan abadlıq və quruculuq işləri sırasında əlbəttə ki, böyük sənətkarların yaşadığı evlər də, adlarını daşıyan muzeylərdə diqqtdə saxlanılır.

### "ŞUŞA MƏSCİDİNDƏ AZAN SƏSİ, CIDIR DÜZÜNDƏ MUĞAM SƏSİ, VAQİFİN MƏQBƏRƏSİ ÖNÜNDƏ ŞEİRLƏR SƏSLƏNİR"

Artıq müharibənin bitməsindən demək olar ki, iki il ötür. Ümummilli Lider Heydər Əliyev "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyirdi. Azərbaycan Prezidenti İlham Əliyev hər zaman çıxışlarında bildirirdi ki, Şuşasız bizim işimiz yarımçıq qalar. Bu, çox önəmli bir mesaj idi və bu gün biz buna nail olmuşuq. Cənab Prezident Şuşanın yenidən təkcə Azərbaycanın deyil, eyni zamanda Qafqazın incisinə çevirəcəyimizin mesajını dünyaya verdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma Şuşamız tezliklə öz əvvəlki şöhrətini qaytaracaq, regionun, eləcə də dünyanın ən gözəl məkanlarından birinə çevriləcək. İsa bulağı, Cıdır düzü, Qırxqız yaylağı öz məclisləri ilə diqqəti çəkəcəkdir.

İşğaldan azad olunan ərazilərdə genişmiqyaslı abadlıq quruculuq işlərinə başlanılıb. Sürətlə həyata keçirilən layihələr əsasında artıq müəyyən qədər işlər görülmüşdür. Şuşadan dünyaya bir sıra mesajlar verilib. Cıdır düzündə "Xarıbülbül" festivalının keçirilməsi "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşadan ucalan səs idi. Daha sonra Vaqif Poeziya Günləri keçirildi. "Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik", - deyə Azərbaycan Prezidenti bildirib.

Əlbəttə ki, Şuşada reallaşan layihələr tezliklə buranın dünyanı heyrətlərdirəcək bir məkana çevriləcəyindən xəbər verir. Şuşa yeni bir qaynar dövrünü yaşayır. Azərbaycan Prezidenti İlham Əliyevin "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamları artıq Şuşada yeni bir həyatın başlanmasını göstərir. Dövlət başçısı "Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamı, "Şuşa Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamı və digər Sənədlər o deməkdir ki, Şuşa yenidən qurulur və dirçəlir.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli Azərbaycan bayrağı dalğalanır və Zəfər tarixinə imza atmış Azərbaycan ərazilərdə böyük quruculuq-abadlıq işlərini uğurla davam etdirir.

**Nəzakət ƏLƏDDİNQIZI**

Araşdırma

# Yeni tədris ili, yoxsa yeni tıxac problemi?



***Bakı kimi böyük şəhərlərdə yaşayan hər kəs, yəqin ki, tıxaca bir dəfə belə olsa, düşüb. Hazırda tıxac problemi əsas problemlərdən birinə çevrilib. İstər avtobus və metrodan istifadə edən insanlar, istərsə də öz şəxsi avtomobili olanlar səhər və axşam pik saatlarda yollarda tıxacdan əziyyət çəkirlər. Hətta sürücülər tıxacların avtomobillərə ziyan vurduğunu qeyd edirlər. Bu tıxac və sıxlıq daha çox Bakı və Abşeronda müşahidə olunur. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

Hər kəsə məlumdur ki, artıq yay tətili bitdi. Paytaxtda tıxac problemi günbəgün dərinləşməyə başlayıb. İnsanların vaxtlarının əhəmiyyətli hissəsi tıxaclarda keçir. Bu səbəbdən bir çox iş yerlərinin normal fəaliyyəti də pozulur. Sentyabrın 15-i dərslər başlayandan sonra Bakı şəhərində nəqliyyatın hərəkətində daha ciddi çətinliklərin olacağı gözlənilir. Paytaxt küçələrində tıxacların digər səbəbi məktəblərin açılmasıdır. Məktəblərin açılması xüsusilə Bakı şəhərində tıxacların yaranmasına səbəb olur. Əlbəttə, dünyanın bütün böyük şəhərlərində olduğu kimi Bakıda da tıxacların olması gözləniləndir. Bu günə qədər Bakıda tıxacların qarşısını almaq üçün bir çox addımlar atılıb.

Nə qədər tədbir görülsə də, maarifləndirmə işləri aparılsa da, hətta sərt cəzalar tətbiq olunsa da, qayda-qanun yaratmaq alınmır. İllərdir müşahidə olunan mənzərə bəllidir. Səhər, günorta, axşam sıxlıq, tıxac... Bəs, bundan çıxış yolu nədədir?

Kulturoloq, tənqidçi ekspert Aydınxan Əbilovun fikirlərinə görə, parklanma üçün məktəblərdə və küçələrdə xüsusi yerlər yoxdur: "Müxtəlif təhsil ocaqlarımızın ətrafı bu və ya digər dərəcədən tıxacla müşahidə olunur. Biz dəfələrlə bildirmişik ki, tələbələr və məktəblilər nə qədər piyada yol getsələr, fiziki əməklə məşğul olsalar onlar bir o qıdər də sağlam böyüyərlər. Təəssüflər ki, bəzi valideynlər uşaqları 10 addımlıq yolu belə nəqliyyatla yola salırlar. Bu ilk növbədə uşaqların sağlamlığına zərərdir. Bundan əlavə olaraq iqtisadi cəhətdən problem yaranır, tıxaclar yaranır, ekologiyaya zərər verilir. Bütün bu problemlərin həllində həlo ki, elə də yaxşı metod görə bilmirik. Bildiyimiz kimi bir çox ölkələrdə yerüstü təhlükəsizlik keçidləri yerləşdirilir. Məktəblərə yaxın küçələrdə bu zolaqlar vasitəsilə maşınların süni sürəti azalır. Fərdi nəqliyyat vasitələri ilə məktəblilərin qəzaya düşməsi halları get-gedə artır. Bir çox ölkələrdə orta məktəb və xüsusən özəl məktəblərin iritutumlu nəqliyyat vasitələri olur. Bu, bir növ tıxacın qarşısını alınır. Düşünürəm ki, dövlət və aidiyyatı qurumlar, Milli Məclisin deputatları ictimai təkliflərlə çıxış etməli və bu təkliflərlə bu kimi ictimai problemlərin aradan qaldırılmasında köməklik etməliyik".



**Bəs görəsən atılan addımların hansısa təsirləri olubmu? Ümumiyyətlə tıxacların qarşısını almaq üçün hansı addımlar atılmalıdır?**

**Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi (DYP) İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli** bildirib ki, paytaxtda yaşamağın üstünlüklərindən istifadə edən hər bir vətəndaşımız buradakı real vəziyyəti düzgün qiymətləndirməlidir: "Kimsə sıxlıqların qarşısı tam alınacağını hesab edir. Amma bu, mümkün olan reallıq deyil. Məsuliyyətli davranış tərzi isə bir çox məsələni həll edə bilər. Məsələn sürücü gedəcəyi yolu və dayanacağı nöqtəni əvvəcədən qiymətləndirmirsə özünün iş yerinin və ya övladının məktəbinin qarşısında yolun ortasında hərəkəti iflic edirsə başqalarını düşünmürsə və bu hərəkətlərinə min bir bəhanə ilə haqq qazandırmağa çalışırsa təbii ki, problemlər də qaçılmaz olaraq qalacaq.

Respublika ərazisində 1 milyon 700 minə yaxın avtomobil parkımız var. Onun 70%-i paytaxtda idarə olunur. Əlavə olaraq, gündəlik regionlardan paytaxta şəxsi məqsədlərlə səfər edən insanların da sayını nəzərə alsaq, bu kifayət qədər ciddi göstəricidir. Bakı şəhəri ərazisində yay mövsümünün bitməsi, iş sezonun açılması, yeni tədris ilinin başlaması sıxlıqları qaçılmaz edəcək.

Polis bəs bunun üçün nə edə bilər? Bu cür sualları, adətən, polisə ünvanlayırlar, amma bu sualı polisə ünvanlamaq bir qədər sadəlövhlükdür. Buna görə ki, polisin işi mövcud infrastrukturda xidməti təşkil etməkdir. Biz də xidmətimizi gücləndirilmiş formada, xüsusi plan üzrə təşkil edəcəyik. Amma heç kimə də deyə bilmərik ki, şəxsi avtomobiliniz ilə küçəyə çıxmayın. Ən yaxşı halda tövsiyə edə bilərik və insanları qaydalara riayət etmək üçün mütəmadi olaraq bilgiləndirə bilərik. Yəqin ki, müəyyən sıxlıqların qarşısını almaq üçün aidiyyəti dövlət orqanları da planlı şəkildə nələrisə etməlidirlər. Bunun üçün də öz tərəfimizdən müəyyən təklifləri vermişik. Biz isə həmişəki kimi gücləndirilmiş qaydada işə başlayacağıq. Əlavə tədbirlər planları hazırlamaqla, xüsusilə dərs ilinin ilk günündə və sonrakı dövrlərdə də bu istiqamətdə öz işimizi görəcəyik. Bizim də əsas məqsədimiz cəmiyyətə düzgün təbliğat aparmaq və məsuliyyət hissinin mahiyyətini çatdırmaqdır. Qaydalara düzgün əməl etməyin hamının həyat tərzini rahatlaşdırdığını təhlükəsizliyin qorunması üçün əsas şərt olduğunu unutmamalıyıq".



**Bakı Nəqliyyat Agentliyinin Mətbuat Xidmətinin rəhbəri Mais Ağayevin** sözlərinə görə, yeni tədris ilinin başlanması ilə əlaqədar müntəzəm sərnişindaşımalara tələbatın artacağını nəzərə alaraq əvvəlcədən qabaqlayıcı tədbirlər görülür: "Müntəzəm sərnişindaşıma fəaliyyəti ilə məşğul olan daşıyıcılara sərnişin sıxlığının minimuma endirilməsi və vətəndaşların təhsil müəssisələrinə, iş yerlərinə vaxtında, eyni zamanda rahat çatdırılması üçün tapşırıqlar verilib. Bildirilib ki, gündəlik xəttə çıxarılan avtobus sayının və avtobuslar arası intervalın sərnişin axınına uyğun tənzimlənməli, eləcə də tələbat olan xətlər üzrə avtobus sayı artırılmalıdır. Sürücülərin hərəkət cədvəlinə, yol hərəkəti və sərnişindaşıma qaydalarına riayət etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Sərnişindaşımaların düzgün və səmərəli icra olunması üçün hərəkət iştirakçılarına o cümlədən fərdi avtomobil sürücülərinə anlayışlı olmağı, yol hərəkəti qaydalarına xüsusən də dayanma, durma və parklanma qaydalarına ciddi əməl etməyi tövsiyə edirik. Övladlarını şəxsi nəqliyyat vasitəsi ilə məktəbə aparan valideynlərdən xahiş edirik ki, təhsil müəssisələrinin ətrafında avtomobillərini qadağan olunan yerdə park edib digər hərəkət iştirakçılarına maneə yaratmasınlar. Çünki bu cür hərəkətlər ictimai nəqliyyat istifadəçiləri üçün əlavə çətinliklər yaradır.

Qeyd edilənləri nəzərə alaraq vətəndaşlarımızı mümkün qədər şəxsi nəqliyyat vasitələrindən istifadə etməməyə və ictimai nəqliyyata üstünlük verməyə çağırırıq.

Yeni tədris ilinin başlanması ilə əlaqədar təhsil müəssisələrinin ətrafında piyada piyadaların hərəkət təhlükəsizliyi səviyyəsinin artırılması istiqamətində də müvafiq işlər görülür. Eyni səviyyəli piyada keçidləri yenidən boyanır, zəruri olan yerlərdə piyada keçidlərində sarı döyünən işıqlar quraşdırılır, asfalt üzərinə "Yavaş Məktəb" xəbərdarlığı qeyd edilir".





**Bakı Metropoliteninin Mətbuat Xidmətinin rəhbəri Bəxtiyar Məmmədovun** sözlərinə görə, avqust ayından başlayaraq Bakı Metropoliteni bütün monitorinqlərinin istiqamətini məhz yeni tədris mövsümünün başlamasına uyğun qurub: "Stansiyalarda metropoliten infrastrukturunda təbii ki, bütün işlər məıhz buna uyöun olaraq planlaşdırılır. Lakin ilk növbədə artıq tədris proseinin başlanması və onun davam etməsi, müxtəlif müəssisələrin pandemiya dövründə fəaliyyətindəki tənzimləmələr və digər məsələlərin hər birisi artıq mərhələlərlə öyrənilir. Buna uyğu olaraq sərnişin axının və sıxlığının ilkin variantları hesablanır. Yaxın bir həftə ərzində bu işlər tamamlanacaq və ictimaiyyətə əlavə məlumatlar veriləcək. Xüsusilə qeyd edim ki, ilk növbədə qatarların hərəkət qrafikində müvafiq dəyişikliklər ediləcək. Bununla bağlı işlər sürətlə aparılır. Bundan əlavə olaraq təbii ki, sərnişin sıxlığı müəyyənləşdirilərək, eskalatorların fəaliyyətində müvafiq tənzimləmələr həyata keçiriləcək. Bakı Metropoliteni yeni tədris ili başlandıqdan sonra artıq monitorinqlərin istiqamətini bir qədər dəyişərək gündəlik sərnişin axını, onun öyrənilməsi və buna uyğun olaraq stansiyaların fəaliyyətində müvafiq tənzimlənmələrin həyata keçirilməsi ilə bağlı tədbirləq planına müəyyən edib. Avqust ayı ilə müqayisədə Bakı Metropoliteninin sərnişin daşıması sentyabrın əvvəlinə görə bir o qədər artmayıb. Artıq sentyabrın növbəti həftəsində sərnişin sıxlığı qismın artmağa başlayacaq. Sentyabrın 15-dən etibarən metropoliten tam olaraq yeni istiqamətdə fəaliyyətini quracaq.

Tıxac və sıxlıqlar nəticəsində yol-nəqliyyat hadisələrin sayı da ötən dövrlə müqayisədə artıb. Vətəndaşlar işə, tələbələr universitetə, şagirdlər isə məktəb vaxtında çata bilmir. Bəs, paytaxtın hansı küçələrində daha çox sıxlıq var?



1. Bakı-Sumqayıt şosesində - Xocəsən yolu ilə kəsişmədən Bakı Beynəlxalq Avtovağzalın qarşısına qədər sıxlıq;

2. Moskva prospektində - Bakı Beynəlxalq Avtovağzalın qarşısından 20 Yanvar dairəsinə qədər - əsas və kənar yol sıxlıq;

3. Rövşən Cəfərov küçəsində - 20 Yanvar dairəsindən başlayaraq əsas yolda, Ziya Bünyadov prospekti istiqamətində sıxlıq;

4. Binəqədi şossesində - mərkəz - "Azadlıq prospekti" metrostansiyası istiqamətində sıxlıq;

5. Ziya Bünyadov prospektində - Böyükşor gölünün yanından Atatürk prospekti ilə kəsişməyə qədər əsas yolda, 20 Yanvar dairəsi istiqamətində sıxlıq;

6. Əsəd Əhmədov küçəsində, Dadaş Bünyadzadə küçəsi ilə kəsişmədən A.Şərifzadə küçəsi ilə kəsişməyədək Zərdabi prospekti istiqamətində sıxlıq;

7. Heydər Əliyev prospektində - "Koroğlu" metrostansiyasının qarşısından 5 saylı ASAN Xidmət mərkəzinin qarşısına qədər kənar yolda sıxlıq;

8. Koroğlu Rəhimov küçəsində, Təbriz küçəsi ilə kəsişmədən ak.Həsən Əliyev küçəsi istiqamətində sıxlıq;

9. Gülarə Qədirbəyova küçəsində, Heydər Əliyev Mərkəzinin yanından Koroğlu Rəhimov küçəsi istiqamətində sıxlıq müşahidə olunur.

Maraqlısı budur ki, əvvəllər tıxaclar, əsasən, Bakının mərkəzində müşahidə olunurdusa, artıq paytaxtdan kənardakı yollarda da hər gün avtomobil sıxlığı qeydə alınır. Məsələn, aeroport yolunda metronun "Koroğlu" stansiyasına, ordan da Heydər Əliyev prospekti ilə paytaxtın mərkəzinə doğru əsas və əlavə yollarda hər gün tıxac müşahidə olunur.

Dünyanı öz cənginə almış koronavirus pandemiyasını nəzərə alsaq, tıxac və sıxlıqların pandemiya dövrünə təsiri necə olacaq?

**Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru, əməkdar həkim Tariyel Eyvazov** bildirib ki, payız fəslinin gəlməsi ilə təbii ki, havalarda müəyyən dəyişikliklər baş verəcək: "Bununla yanaşı həmçinin məktəblərdə tədris ili başlayır. Həm iqlim dəyişikliyi, həm də əhali sıxlığı müşahidə olunacaq. Artıq müəyyən qədər bununla bağlı təcrübəmiz var. Koronavirusun verdiyi zərərlərin şahidi olmuşuq. Biz xəstəliyin yayılmasını gözləməməliyik. Bununla bağlı profilaktik tədbirləri bilirik. İctimai nəqliyyatda bacardığımız qədər sosial məsafəni saxlamlıyıq. Tədris ilinin başlanılması ilə nəqliyyatda sıxlıq yaranacaq.



Bu baxımdan Virus yayılmamış profilaktik tədbirlərə riayət etməliyik".

Ümumiyyətlə valideynlər işlərini elə planlaşdırmalıdırlar ki, məktəb yanında yalnız uşağı düşürmə və mindirmə vaxtı dayansınlar. Dayanıb gözləmə olacaqsa, sıxlıq və tıxac qaçılmaz olacaq. Düşünürəm ki, məktəblərin ətrafında dayanma, durma və parklanmalara ciddi nəzarət olmalıdır. Elə edilməlidir ki, ən azı ikinci və üçüncü cərgələrdə dayanma və parklanma olmasın.

***Arzu Qurbanlı***

**Havadan payızın ətri gəlir. Yəni elə payıza sayılı günlər qalır. Artıq Şuşa günlərdir ki, yaya əlvida deyib, payıza qədəm qoyub. Çünki dağların qoynuna sığınan bu gözəllər gözəlinin yay ömrü qısa olur. Bütün dağlıq ərazilərimiz kimi, Şuşa da payıza daha tez qədəm qoyur. Budur, bu günlər Şuşanın dağlarına duman gəlib, çən çöküb. Sosial şəbəkələrdən izlədiyim bu füsunkar görüntülərlə Xan Şuşinskinin "Şuşanın dağları başı dumanlı" mahnısını xatırlayıram. O mahnı ki, bu bənzərsiz təbiət gözəlinin elə bənzərsiz olan hüsnünə yazılmışdı. Lakin təzyiqlərlə də qarşılaşmışdı həmin mahnı. Sovet rejiminin senzurası "Şuşanın dağlarının başı dumanlı" olmasını qəbul etməmişdi. Çünki onlara görə duman burada başqa duman mənasını kəsb edə bilərdi.**




# Şuşanın dağları başı dumanlı, dumandan boylanır Zəfər Bayrağım...

Özünü bütün sözlərdən, fikirlərdən qoruyan, dağılacağını, məhv olacağını düşünərək insanların ruhuna, düşüncəsinə düşmən kəsilən sovet rejiminin Xan Şuşinskiyə də bu mənada təsiri bu günün prizmasından nə qədər gülünc görünür. Bir şuşalının öz təbiət gözəli barədə mahnı yazması, onu təsvir və vəsf etməsi nə qədər böyük problemlə qarşılanıbmış, İlahi...

Məgər dağın başının dumanından bəhs etmək bu qədərmi təhlükə yaradırdı? Yoxsa bu duman başqa dumanlarla səhv salınırdı. Və ya bu dumanların insanlara başqa dumanları anladacağından qorxulurdu? Maraqlıdır, Şuşanın dağlarının dumanlı olması nə üçün rejim rəhbərlərini bu qədər qorxudurmuş? Yoxsa bu dumanda itib-batacaqları kabusu dolanırdı başları üzərində...

Yox, yox, qorxu Şuşanın dağlarının başının dumanlı olmasında deyildi. Bu təbiət gözəlinin özü kimi gözəl qızlarına geyindirdiyi yaşıl ətəkdə, qırmızı köynəkdə idi. O köynək, o ətək ki, illərlə gözlərə bıçaq olan bayrağımızın rəngində idi. Bu rənglər idi təlaşları yaradan. Bu rənglər idi qorxuları yaradan. Bu rənglər idi Xan Şuşinskiyə mahnının sözlərini dəyişdir, dedirdən...

Mahnının sözləri dəyişə bilər, lakin xalqın ruhu dəyişə bilməz. Xan Şuşinski mahnı senzuradan keçənədək onu dəfələrlə ifa etmişdi və bu ifa xalqın yaddaşına elə bir tərzdə hopmuşdu ki, əsrlər keçsə də, Xan babanın oxuduğu kimi qalacaqdı. Onu hafizələrdən heç bir qüvvə silib ata bilməzdi...

Şuşanın dağları başı dumanlı.... Qırmızı qoftalı, yaşıl tumanlı...

## Dərdindən ölməyə çoxdu gümanım...

Vallah, burada üçrəngli bayrağımızın dərdindən ölməyi söyləyir Xan baba. Bu qız söhbəti də ona görə işlənib ki, fikirləri bir o qədər cəlb etməsin. Elə Şuşanın gözəlliyi ilə bayrağımızın oxşarlığı eyniləşdirilib burada.

Sovet rejiminin narahatlığı əslində yerində imiş. Onlar Xan babanın sarı simi haradan vurduğunu gözəl anlamışlar. Ona görə də Xan babaya "duman" və "ölərəm" sözlərini mahnıda çox işlətdiyini irad tutmuş, bu sözlərin mahnıdan çıxarılmasını tələb etmişlər. Lakin geç imiş. Artıq mahnı bütün azərbaycanlıların dilində əzbərə çevrilmişdi.

Şuşanın dağları başı dumanlı,
Qırmızı qoftalı yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdu gümanım.
Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.
Şuşada axşamlar yanar ulduzlar,
Onlardan gözəldi gəlinlər, qızlar,
Oturub yol üstə yarını gözlər.
Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Şuşanın hər yandan gəlir sorağı... Tərifə layiqdir İsa bulağı,

Dağları, bağları, qızlar oylağı...

Bəli, həmişə Şuşanın hər yandan gəlib sorağı. Tərifə layiq olub İsa bulağı da, qızlar oylağı da, Cıdır düzü də, hər bir dağı dərəsi, yaylağı, gülü-çiçəyi, xarıbülbülü də. Elə zamanla düşmənin dişlərini qıcadan da bu gözəllik olmamışdımı? Erməni adlı ayağı Şuşaya dəyməyə layiq olmayan murdarların da xəyalı elə sovet rejimi dövrlərindən bu gözəl diyarı ələ keçirib onun gözəlliyinə sahib olmaq deyildimi? Havadarları Şuşa haqqındakı fikirlərindən fikir alıb niyə də Şuşadan uzaq durardı ki, yağı düşmən?..

Elə bu səbəbdən də 28 il anasının qoynundan qoparılıb ondan ayrı salınmadımı Şuşa?.. 28 il düşmənin murdar ayaqları dağlarından süzülüb gələn sular qədər sat, təmiz, pak yurd yerimizi murdarlamadımı? Şuşadan yana canlarından keçən yağının bir qərinəyə yaxın arzuları gerçəkləşmədimi?..

Oldu bunların hamısı. Lakin Şuşanın sahibi gələcəkdi, Xan babanın mahnıdakı vəsf etdiyi rənglər rəngdə bayrağı Şuşanın ən yüksək zirvəsinə sancacaqdı axı...

Bunu düşünməmişdimi görəsən qonşuluqdan kənar olmuşlar?

## Tarixin əzəli, mədəniyyətin beşiyi, şeiriyyətin məskəni Şuşa!

2020-ci ilin 44 günlük Vətən müharibəsi Şuşanı da qopardı yağının qanlı, çirkli əllərindən. Həmin gün- 8 noyabrda - Şuşa Zəfəri günü Şuşa Vətənə qayıdışını Şəhidlər Xiyabanından salıb, şəhidini, torpaq uğrunda canlarından keçənlərini bağrına basdı. 1990-cı illərin 20 Yanvarında, Xocalı qətliamında, bir-birinin ardınca işğal olunan qolbudaqlarında can qoyub, qan tökən igid övladlarını ziyarət etdi, azadlığının müjdəsini doğmalarına verib Qarabağa-ata-baba yurduna doğru yolçuluğa çıxdı Şuşa. Ona elə bu da yaraşırdı. Axı o, qala qürurlu, dağ vüqarlı, əzəmət mücəssəməsi, yenilməzlik simvoludur, Qarabağın ağsaqqalıdır.

Qarabağın gözü, döyünən ürəyi, Azərbaycanın baş tacıdır... Azadlığın, hürriyyətin mübarək, dedik həmin gün Şuşaya: Ey igid oğlu dağlar, mərd qızı qayalar olan gözəlliklər məskəni Şuşa. Bayrağının qırmızısından gözəllərinə köynək, yaşılından ətək biçən, mavisini göy üzünün buludları, dumanı-çəni ilə qarışdırıb gözəllərinə örpək edən Şuşa, qayıdışın mübarək! Ey tarixin əzəli, mədəniyyətin beşiyi, şeiriyyətin məskəni Şuşa! Sən Qarabağa yolçuluğa çıxdın, sənin pişvazına isə bütün Azərbaycan çıxdı. Onların arasında kimlər vardı, gördünmü? Yolunun başlanğıcında Ali Baş Komandanımız, sonra Şəhidlər Xiyabanında bağrına basdığın şəhidlərin ailələri, 28 il əvvəl köksündən qoparılaraq Azərbaycanın müxtəlif bölgələrinə ümid aparan qaçqın, köçkün övladların qarşıladı səni. Paytaxt Bakı, Qoca Naxçıvan çıxmışdı pişvazına. Qarabağ uğrunda mərmi yağışına tutulub neçə-neçə günahsız insanlarını itirmiş, minlərlə ev-eşiyi dağılmış, lakin düşmənə qorxusuzluğu, əyilməzliyi ilə meydan oxuyan Gəncə, Bərdə, Tərtər şəhərlərinin övladları qarşılayırdı səni. Azərbaycanın bütün rayon, şəhər, qəsəbə, kəndləri böyük coşqu ilə bayraq meydanlarında, küçələrdə, xiyabanlarda 28 il həsrət qaldığın üçrəngli bayrağımızla qarşıladı səni. Bayraq günün, bayraq vüsalın mübarək, Şuşa!

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

## Zəfər bayraqlı Şuşam...

Qoy gəlsin payızın, gözəl Şuşam. Sən payızda daha gözəl, daha füsunkar olursan, bir möcüzəli aləmə çevrilirsən. Qoy gəlsin payızın, o yaşılı sarı edən fəsil deyil ta. Payız Qarabağın baharıdır, xilaskarıdır. Payız adlı fəsil yoxdur ta dilimizdə. Zəfər fəsli var. Qoy gəlsin Zəfər fəslin.

Dağlarının başını duman gəlsə də, bu, təbiətin gözəlliyidir. Ta qorxma bu dumanı da Xan babanın dövründəki kimi əlindən alan olmayacaq. Sənindir dumanın da, çənin də, bütün gözəlliklərin də. Sənindir duman arasından günəş tək boylanan üçrəngli Zəfər bayrağımız da. Bu bayraq dalğalarında bütün dünyaya bəyan edir ki, Şuşa Azərbaycanın qədim, əzəli torpağıdır. 28 il anası Azərbaycandan qoparılan, artıq iki ildir ki, Vətəninə qayıdan Şuşa əbədiyyən azaddır. Bəyan edir ki, Şuşanın səmasındakı üç rəngimi onun sinəsindəki rənglərlə harmoniyalaşdıran əbədi Azərbaycan bayrağıyam.

Üçrəngli Zəfər bayraqlı Şuşam... Bütün fəsillərin gözəli Şuşam... Nə qədər gözəl yaraşır hüsnünə duman... Nə qədər fərqli görünüş verir sənə bu çən, bu duman... Düşmən kənardan baxıb bu dumanda itir, batır... Lakin sənin bu dumanından qədim bir tarix boylanır: Azərbaycan tarixi!

***Mətanət Məmmədova***

# "Sülh razılaşması olmasa, Azərbaycan qalan əraziləri güc yolu ilə götürəcək"

***Azərbaycan Prezidenti İlham Əliyevin yaxın bir neçə ay ərzində Ermənistanla sülh sazişinin imzalanmasının mümkün olmasını bəyan etməsi Azərbaycan diplomatiyasının və onun strategiyasının ən yüksək səviyyəsini bir daha təsdiqləyir. Bunu Moskva-Baku portalına şərhində Rusiyanın tanınmış politoloqu Yevqeni Mixaylov bildirib. SİA ekspertin rəyini oxucularına təqdim edir.***





"Bu sözlərin Brüsseldə Nikol Paşinyanla görüşdən sonra deyilməsi heç nəyi dəyişmir. Çünki sülh prosesinin əsas təminatçısı hələ də Rusiyadır və onun ən müxtəlif istiqamətlərdə Ermənistan-Azərbaycan nizamlanması üzərində daim iş apardığı şübhəsizdir. Nəqliyyat və iqtisadi əlaqələrin bərpası, Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə də işlər aparılır.

Rusiyanın, xüsusən də Ukraynada keçirilən xüsusi əməliyyat fonunda Cənubi Qafqazda yeni münaqişənin qızışdırılmasına heç bir şəkildə ehtiyacı yoxdur. O, ilk növbədə, 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı imzalayan İrəvanın bəyanatın müddəalarını həyata keçirməsi, razılaşmaları yerinə yetirməsi üçün bütün səylərini göstərəcək.

Bəli, Ermənistan Rusiyanın müttəfiqi olduğu görüntüsü ilə oynayır, əslində isə beynəlxalq siyasətdə çoxdan bir neçə kresloda əyləşib. Ermənistan həmişə üçüncü tərəflərə- istər ABŞ, istər Fransa, istərsə də Aİ olsun- yalnız Ermənistan-Azərbaycan danışıqlar prosesində öz mövqeyini yaxşılaşdırmağa çalışmaq üçün müraciət etmək yollarını axtarır, qeyri-real şərtlər səsləndirməyə çalışır, bununla da danışıqlar prosesini ləngidir.

İlham Əliyev deyir ki, Qarabağın statusu ilə bağlı İrəvanın prinsipial şərti müzakirə oluna bilməz, çünki Qarabağ Azərbaycandır. Nə sağ, nə də sol. Azərbaycan İkinci Qarabağ müharibəsində qalib gəlib və qalib kimi öz şərtlərini müəyyən etmək hüququna malikdir. Ermənistan vəziyyəti dəyişə bilməyəcək. Azərbaycan həddən artıq çox sərmayə qoyub - həm müharibəyə, həm də azad edilmiş torpaqların bərpasına,- danışıqlar prosesində nədənsə imtina etmək üçün yox. Burada kimin güclü, kimin zəif olduğunu bilmək lazımdır.

İkinci Qarabağ müharibəsində qələbə qazanması, əvvəllər işğal olunmuş torpaqların geri qaytarılması ilə İlham Əliyev artıq tarixə düşüb. Və heç bir güzəşt olmayacaq. Ermənistan daha əvvəl düşünməli idi. Ermənistan indi heç nə tələb edəcək vəziyyətdə deyil. Hesab edirəm ki, Rusiya tərəfi vəziyyətə anlayışla yanaşır. İstənilən halda Rusiya ilə Azərbaycan arasında ərazi bütövlüyünün qarşılıqlı tanındığı Müttəfiqlik Əməkdaşlığı Bəyannaməsi imzalandı.

Hesab edirəm ki, rəsmi İrəvanın statusla bağlı təxribat xarakterli bəyanatları və guya "etnik təmizləmə" ilə bağlı bəyanatları sadəcə olaraq müxalifətin, əhalinin qisas almaq istəyən ultra-millətçi hissəsinin oyunudur. Amma faktiki olaraq Ermənistan Azərbaycanla sülh müqaviləsi bağlamağa çalışır. Bu gün sadəcə olaraq yaşamaq, inkişaf etdirmək və ailəsini dolandırmaq, qonşuları ilə barışıq yaşamaq istəyənlərdən daha az revanşist düşüncəli insanlar var.

Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalayacaq, geriyə dönüş olmayacaq. Vəziyyət sülh yolu ilə başa çatdırılmasa, açıq demək lazımdır, Azərbaycan, qalan əraziləri güc yolu ilə alacaq.

İndi Ermənistan faktiki olaraq çoxdan ölmüş ATƏT-in Minsk qrupuna müraciət etməkdən əl çəkmir. Bu həm də o tərəfdə kömək tapmaq və danışıqları uzatmaq cəhdidir.

Əsas odur ki, Paşinyan ilin sonuna kimi devrilməsin. Təsadüfi deyil ki, indi Ermənistan müxalifəti indiki baş nazirin istefası ilə bağlı əvvəlki gündəliyin təbliği, Qarabağın statusu tələbi ilə mitinqləri, separatçıların ABŞ-a səfərləri ilə bərpa edib. Ermənistan siyasi cəhətdən çox qeyri-sabit dövlətdir. Bununla yanaşı, ermənilər arasında sülh tərəfdarları getdikcə artır. İstisna etmirəm ki, əgər Ermənistanda müxalifət hansısa çaşqınlıq etmək qərarına gəlsə, söhbət kritik vəziyyətə gəlsə, çox güman ki, Ermənistana KTMT qüvvələri yeridiləcək, bunu biz Qazaxıstanda gördük.

Yeri gəlmişkən, əvvəllər "Qarabağ hekayəsi"nə dəstək verən Rusiyada yaşayan bir çox ermənilər Qarabağı artıq unutduqlarını, bu məsələdən bezdiklərini, köməyə göndərdikləri pulların hamısının oğurlandığını deyirlər.

Amma Ermənistan həm iqtidar, həm də müxalifət Qərbdən kömək istəməkdə davam edir. Ermənistanın müdafiə naziri, separatçıların nümayəndəsi ABŞ-a uçub. Ancaq hər yerə uçsunlar. Onlara kimsə kömək edə biləcəkmi? Yox. Bu, yalnız Rusiya tərəfini təşvişə salacaq və Moskvanı qabaqlayıcı tədbirlər görməyə məcbur edəcək ki, belə səfərlərin nəticələri olmasın. Onlar daim Qərbdə kömək axtarırlar. Yeganə sual, Qərbin bunu təmin edib-etməyəcəyidir, çünki Qərb indi Ermənistandan asılı deyil. Baş verən beynəlxalq siyasi və iqtisadi proseslər fonunda artıq Qərbin özündə də Rusiyaya qarşı sanksiya siyasətinə görə iğtişaşlar yaşanır.

Eyni zamanda, biz Aİ-nin ardıcıl təbliğat xəttini görürük ki, Azərbaycan və Ermənistan arasında bütün razılaşmaları məhz o axtarır. Ermənistan-Azərbaycan məsələsinin Rusiyasız həll olunmayacağı tamamilə aydındır. Rusiya sadəcə olaraq Qərbin cəhdlərini müşahidə edir, amma işləyir. Bu, özünü heyvanların padşahı hesab edən dovşanı seyr edən şir kimidir.

***Tərcümə - Elçin Bayramlı***

# "Uşaqlara şiddət göstərən insanları görəndə hiddətlənirik"



Bəziləri şiddəti uşağın tərbiyəsində lazımlı vasitə kimi görür. Lakin şiddət günahkarlıq, utanc, özünə nifrət kimi hisslərin uşağın şəxsiyyətinin təməlində yerləşməsinə səbəb olur. Uşaqlara etdikləri hər səhvə görə qışqırmaq və danlamaq onların davranışlarını düzəltmək üçün kifayət deyil. Əksinə, davamlı qışqırmaq, danlamaq uşaqlara fiziki, psixoloji və sosial cəhətdən mənfi təsir göstərərək onların inkişafına xələl gətirir. SİA bağça və tədris mərkəzlərində uşaqlara şiddət göstərilməsi ilə bağlı bağça direktoru və tərbiyəçi müəllimin fikirlərini öyrənib.

**"Karusel" uşaq bağçasının direktoru Xəyalə Əzizli:** "Son günlər video görüntüləri yayılan mərkəzdə baş verənlərə münasibət bildirmək sarsıdıcıdır. Belə halların yaşanması hər kəsdə qarşı tərəfə qəzəb yaradır. Biz təhsil və tərbiyə verənlər, gələcəyə sağlam ruhlu şəxsiyyət yetişdirmək üçün çalışarkən, psixoloji durumu düzgün olmayan, gördüyü işin məsuliyyətini anlamayan və hər şeydən önəmli, mütəxəssisəm deyib uşaqlara şiddət göstərən insanları görəndə hiddətlənirik.



Təəsüflər olsun ki, bir çox təhsil müəssisələri tərbiyəçi və ya uşaqla birbaşa işləyən məsul şəxslərin psixoloji durumundan xəbərsizdir. İşə qəbuldan əvvəl öncə işəgötürən çalışacaq olan şəxsin işini izləyərək ona sınaq müddəri verilməlidir. Uşaqlara olan sevgisi, uşaqlarla danışıq tərzi, onlara ötürdüyü enerji və uşaqların ona olan sevgisi nəzərdən keçirilməlidir. Bu müddət şəxsə görə dəyişə bilər. Bütün bunlar test edildikdən sonra təbii ki, rəhbərliyin nəzarəti ilə uşaqları mütəxəssisin ixtiyarına vermək olar. Yəni bu izləmə daimi olmalıdır".

**Xətai rayonu 316 saylı uşaq bağçasının tərbiyəçi müəllimi İlhamə Sarıyeva:** "Qayğı və sevgiyə ehtiyacı olan körpələrlə belə davranışlar bağışlanılmazdır. Hər hansı bir müəssisəni maddiyyat naminə açmaq, səriştəsiz təcrübəsiz əməkhaqqı almaq naminə işləyən şəxsləri işə götürmək günahsız körpələrin belə işgəncə görmələrinə gətirib çıxarır. Cəmiyyətə sağlam ruhda tərbiyə olunmuş uşaqlar lazımdır. Bizim gələcəyimiz onların əlindədir.

Bizim qrupumuz uzun illərdir fəaliyyət göstərir və həmişə fəaliyyəti ilə seçilən qrup olaraq öz işini davam etdirir. Sevgi ilə əhatə olunmayan körpələr saglam ruhda tərbiyə ala bilməz. Bİzim bagçadakı uşaqlar peşəkar pedaqoqların rəhbərliyi altında təlim-tərbiyə alırlar. Müəssisəmizin rəhbəri Nabat Rəfiyeva bu yöndə əlindən gələni əsirgəmir. Onun məsuliyyətli iş prinsipi nəticəsində bağçamız həmişə sayılıb seçilən bağçalar sırasında inamla yeni uğurlar qazanmağa doğru addımlayır".



***Ayşən Vəli***

# Ermənistan təxribatlarına niyə son vermir?



**POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ**

***"31 avqust Brüsseldə keçirilən tarixi görüşdən sonra Şarl Mişelin bəyanatında aydın oldu ki, tərəflər arasında sülh danışıqları üçün razılığa gəlinib". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.***

Onun sözlərinə görə , Şarl Mişel bəyanatda bildirdi ki, sülh danışıqları üçün hər iki ölkənin xarici işlər nazirləri 1 ay müddətində görüşməli və sülh mətni hazırlanmalıdır: " Noyabrda yenidən ölkə rəhbərləri görüşərək Brüsseldə danışıqları davam etdirəcəklər. Eyni zamanda kommunikasiyaların açılması, sərhədlərin delimitasiya və demarkasiya üçün lazım olan işlərin görülməsi barədə Brüsseldə danışıqlar aparıldı. Bununla əlaqədar bildirildi ki, əhali sülhə hazır olmalıdır. Azərbaycan əhalisi sülhə hər zaman hazırdır. Bu sözlər Ermənistana aid edilməlidir. Danışıqlardan sonra Ermənistana qayıdan baş nazir Paşinyan öz partiya yoldaşlarının iştirak etdiyi tədbirdə bildirdi ki, bəli, biz sülh müqaviləsi imzalamalıyıq və bunun üçün nə lazımdırsa edəcəyik. Hətta, Paşinyan bu ilin sonuna qədər sülhün bağlanmasına hazır olduqlarını da bildirib. Ancaq görünən odur ki, ciddi təxribatlar baş verir. Brüssel görüşlərindən sonra bizim mövqelərimiz Ermənistan tərəfindən Kəlbəcər və Laçın istiqamətində atəşə tutulmağa başlandı. Bunu da çox biabırçı vəziyyətdə təkzib etməyə çalışırlar. Ancaq Azərbaycan faktları ortaya qoyur".

Politoloq sözlərinə əlavə edərək qeyd etdi ki, sentyabrın 2-də dırnaq arası "Artsax"ın müstəqilliyinin il dönümünü təntənə ilə qeyd etdilər: " Ora qeyri-qanuni olaraq Ermənistanın rəhbər işçilərinin gəlməsi və Rusiya sülhməramlılarının buna göz yumması təxribat xarakterli daşıyan əməllərdir. Axı biz sülh danışıqların aparılması barədə danışırıq. Onlar isə bu cür qeyri-qanuni hərəkətlərlə təxribatlar edirlər. Ermənistan bu təxribatlara əl atmaq səbəbi isə xəbis millət olmasıdır. Zəfərimizdən sonra ermənilər məğlub olsalar da öz provakasiya xarakterli hərəkətlərindən davam etdirirlər. Qarabağda yaşayan ermənilərin status məsələsin ortaya atırlar. Lakin biz bunu dəfələrlə qeyd etmişik ki, heç bir statusdan söhbət gedə bilməz. Eyni zamanda Ermənistan tərəfi fəaliyyətini dayandırmış Minsk qrupunun həmsədrlərinin fəaliyyətini yenidən bərpa etməyə çalışırlar. Halbuki buna Rusiya və Azərbaycan dəfələrlə bəyan etdi ki, Minsk qrupu heç bir iş görməyib. Biz də bəyan etdik ki, Minsk qrupunun həmsədrləri 28 ildir ki, fəaliyyət göstərə bilmədilər. Sadəcə olaraq turist kimi gəlib gedirdilər. BMT-nin qərarlarını Azərbaycan ordusu hərb gücünə həyata keçirdi. Minsk qrupunun yenidən bərpa edilməsi yol verilməzdir. Bu sülh müqaviləsinin uzanmasına gətirib çıxara bilər. Bu gün Rusiyanın Vladivostok şəhərində VII Şərq İqtisadi Forumu keçirilir. Forumda iştirak edən Paşinyan qeyd etdi ki, sərhədlərin və kommunikasiyaların açılması üçün işlər görülür. Eyni zamanda Paşinyan vəziyyətin gərginləşməsi ilə bağlı fikirlərini bildirib. Səbəb isə Azərbaycan ordusu yenidən öz ərazisində anti-terror əməliyyatı keçirməsidir. Onlara görə erməni silahlılarının məhv olması Cənubi Qafqazda vəziyyəti gərginləşdirəcək. Vəziyyəti gərginləşməsinin Rusiyanın mühabirə aparması və başının qarışmasından aslı olduğunu Paşinyan bildirib. Yenə də təxribatçı bir çıxış edib. Eyni zamanda Brüsseldə əldə edilən razılıqdan sonra Rusiya siyasi rəhbərliyi qısqanclıqla yanaşdı .Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Moskvaya çağırıldı. Onların müdafiə naziri isə ABŞ-a səfər edir. Biz bildirimişdik ki, ABŞ-da müəyyən qüvvələr xüsusən də erməni diasporası əlində alət olan beş senator Qarabağla bağlı çağırış etdi. Onlar Qarabağdakı ermənilərin suverenliyi barədə əllərinən gələni edəcəyini bildirdilər Bu da yenə təxribat xarakterlidir. Onlar " Artsax"ın xarici işlər naziri Babayanı ABŞ konqresinə dəvət ediblər. Ancaq ABŞ-ın dövlət departamenti açıqlama yaydı ki, onun gəlməsi bağlı məlumat yoxdur, biz tərəfindən çağrılmayıb. Yəni, ermənilər öz xarakterinə uyğun olaraq təxribatların davam etdirir. Azərbaycan öz diplomatiyası ilə Ermənistanı sülhə məcbur edəcək. Artıq bunu Avropa İttifaqı, Rusiya və bütün dünyanın digər güclü dövlətləri də dəstəkləyir ki, sülh müqaviləsi bağlansın . Ancaq bəzi qüvvələr sülhü geçikdirməkdə və sülhün bağlanmamasında maraqlıdırlar".

***Qönçə Quliyeva***

# Müxalifətin fəaliyyəti dövlətə xəyanətdir"

***"İstər Milli olmayan "Milli Şura" adlanan bədnam qurum olsun, istər hansısa siyasi partiya olsun, fərq etməz, bu gün Azərbaycanda sabitliyi pozmaq üçün istənilən cəhd bu xalqa və bu dövlətə xəyanətdir". "Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da " Səs" qəzetinə açıqlamasında bildirib.***




Onun sözlərinə görə, erməni lobbisinin təsiri altında olan bəzi dünya gücləri olan Qərb dairələri Azərbaycanın 44 günlük qələbəsini həzm etmək istəmir və Cənubi Qafqazda sülh yaranmasına hər vəchlə mane olmağa cəhd edirlər: "Qafqazda maraqlarını heç kimə qurban vermək istəməyən Cənub qonşumuz-İran fars-molla rejimi Azərbaycanın sürətli inkişafına mane olmaq üçün dəridən, qabıqdan çıxır. Bütün bu təzyiqlərin, labirintləşmiş dünyada gedən kəskin geosiyasi mübarizələrin fonunda Azərbaycan inkişafdadır. Hətta təşəbbüs göstərərək yaratdığı türk birliyinin ilbeil möhkəmləndirilməsinə ciddi töhfələr verir. Dünya güclərinin təzyiqinə baxmayaraq Azərbaycan BMT-nin qəbul etdiyi dörd Qətnaməni öz gücünə həyata keçirdi. Məncə on beş il əvvəl bütün bunları yalnız röyalarda görə bilərdik. Belə də nə istəyir bu özünü bilməzlər? Təbii ki, xaricdən gələn pul-para xatirinə ölkədə qarışıqlıq salmaq, sabitliyi pozmaq, əvəzində erməni lobbisinin anti-Azərbaycan fəaliyyət üçün ayırdığı milyonlardan əldə edib, rahat yaşamaq. Yəni bu insanabənzərlərdə şəxsi ambissiya elə qudurub ki, onların Vətən, Xalq, Dövlət haqqında düşüncələrini də salıb öz təsirləri altına. Ancaq mən əminəm ki, həmişə ki kimi yenə bu qüvvələrin istəkləri gözlərində qalacaq. Bu gün Azərbaycan hakimiyyətinin reytinqi o qədər yüksəkdədir ki, bu cür addımlar bu reytingə təsir etmək iqtidarında deyil. Cəmillərin, əlilərin, onlara bənzər digərlərinin istəkləri yenə gözlərində qalacaq. Buna adım qədər əminəm".

***Gülyana***



**Mətanət MƏMMƏDOVA**

# Binanın problemi bitmir ki bitmir...

***Nədəndir, hansı səbəbdəndir, bilmirəm, lakin bildiyim odur ki, Bakı şəhərinin Xətai rayonunda, Xətai metrosunun lap yaxınlığında, Bakı Əyləncə Mərkəzi ilə üzbəüz "SAHİL-D" kompaniyasına məxsus 24 mərtəbəli 4 binada problemlər nə bitir, nə də tükənir. Sanki Allah da bu binalardan üz çevirib. Bunun da səbəbi sözsüz, binalara rəhbərlik edən insanların məsuliyyətsizliyidir ki, ta bundan Yaradan da bezib.***

Problem nə qədər olar, yəni heç bitib tükənməzmi? Sanki burada problemlər sıraya düzülüb, həftənin günlərinə paylanıb. Bir gün lift işləmir, sabahı gün su gəlmir, sonrakı gün qaz problemi çıxır ortalığa, daha sonrakı gün yanğın baş verir, ondan sonrakı gün elektrik enerjisi kəsilir. Şənbə, bazar isə burada yaşayan sakinlər həftə boyu düşdükləri stresslərdən yaxa qurtarmağa çalışırlar. Lakin buna nə dərəcədə nail olurlar, hələ bilinmir.

Artıq problemlər sakinlərin istirahət günlərini də ağuşuna alıb. Ötən həftənin bazar günü 24 mərtəbəli 4 binanın 3 saylısında elektrik şəbəkəsində yaranan problem səbəbindən yanğın baş verib. Daxili İşlər Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının operativ tədbirləri ilə yanğının, eyni zamanda insanlar üçün təhlükənin qarşısı alınıb.

Sakinlərdən təbii ki, ikinci evi, yaxın qohum-əqrəbası olanlar binanı tərk ediblər, çünki məlumat verilibmiş ki, problemin həlli ən azından bir gün, gün yarım çəkəcək. Gedəcək yeri olmayan sakinlər isə bu gün artıq dörd gündür ki, gecələri qaranlıqda oturmaq məcburiyyətində qalıb, gündüzlər isə heç bir elektrik məişət əşyalarından istifadə etmədən yaşamaqdadırlar. Şükürlər olsun ki, necə deyərlər, bu sakinlərin anaları namaz üstündə imiş, elə bazar günündən də havalar müəyyən qədər sərinləyib. Yoxsa bina sakinlərinin vəziyyətini gözlər önünə gətirmək heç də çətin olmazdı.

Hər gün aid adamların işıqların bu gün yanacağını vəd etməsinə baxmayaraq, axşama doğru sakinlər həmin vədlərin boş olduğunu təsdiqləyir, şam yandırıb ətrafına toplaşırlar.

**Bakı şəhərinin mərkəzində belə bir hadisənin yaşanması həqiqətən çox üzücüdür. Görəsən çoxmərtəbəli binanın yüzlərlə sakininin vəziyyəti heç kimimi narahat etmir?**

Bu binalar sakinlər arasında yiyəsiz, sahibsiz binalar adlandırılır. Düzdür, yiyəsi bir vaxtlar cinayət məsuliyyətinə cəlb edilsə də, bundan nəticə çıxarılmayıb. Hazırkı yiyələr də həmin yiyələrin davamçılarıdır. Bina elektrik enerjisini, yaxınlıqdakı Bakı Əyləncə Mərkəzindən, necə deyərlər, "dilənir". Bu böyüklükdə 4 binanın özünün sərbəst elektrik enerji mənbəyi yoxdur. Bu yiyə, sahib fikirləşməyib ki, bu çoxsaylı sakinə axı bu enerji sərf etməyəcək. Görünür ki, xətlərin də böyük məsuliyyətsizliklə çəkilməsi şəbəkənin yüklənməsinə, belə təhlükəli yanğının baş verməsinə səbəb olub.

Bu yiyəsiz, sahibsiz binaların sakinləri Allah ümidinə yaşayırlar. Qaldı ki, 3 saylı binanın dörd gün işıqsız qalan sakinlərinə, onlara bu gün işığın veriləcəyi bildirilib. Lakin buna inanmağın nə qədər doğru olduğu yenə də şübhə altındadır. Bu səbəbdən də ümidlərlə yaşamağı bina sakinlərinə məsləhət bilir və onlara böyük səbir arzulayırıq.

Bir də düşünürük ki, görəsən bu işıq məsələsindən sonra qarşıda bina sakinlərini hansı problem gözləyir? Bir halda ki, bu binalarda problem bitmir, bunu düşünməməyin özü də günah olardı. Təvəkkül Allaha, bina sakinləri, hələ Allaha yalvarın, işığınız yansın, sonrasına baxarsınız.

Yazını bitirmək üzrə belə bir məlumat da aldıq ki, işıqlar bu gün yansa da, internet hələ günlərlə olmayacaq. Çünki internet xətləri də yanıb kül olub. O xətlər isə hələ bu gün yada düşüb. Yenə də milyonlarca dəfə təvəkkül Allaha...

# Erməni müxalifətçidən ETİRAF: “Ermənistan avtoritar ölkədir!”

*Avetik Çalabyan: "Ölkənin təhlükəsizlik sisteminin vahid strategiyası yoxdur"*



***“Bütün göstəricilərinə görə Ermənistan demokratik deyil, avtoritar ölkədir”. SİA xəbər verir ki, bu barədə ölkənin verelq.am saytı bir müddət əvvəl istintaq nəzarətindən azad edilən siyasi xadim Avetik Çalabyanın fikirlərini dərc edib.***

Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin bütün budaqları bir siyasi mərkəz tərəfindən nəzarət altında saxlanılır. ”Bu nəzarət imkan verir ki, hakimiyyət hüquq-mühafizə sistemini özünün siyasi opponentlərinə qarşı istifadə edə bilsin”, deyə Çalabyan CivilNet-in efirində ona qarşı başladılan proses haqqında danışarkən bildirib.

### Erməni müxalifətçisi: ”Həbsimə qədər bəyanatlarımda səsləndirdiyim həmin aspektlər indi də qalmaqda davam edir, təəssüf ki, ölkədə heç nə dəyişməyib”

Onun iddiasına görə, istintaq altında olduğu müddətdə mövcud vəziyyət onun siyasətlə məşğul olmasına təsir göstərməyib. ”Mən həbs altında saxlanıldığım müddətdə də siyasətlə məşğul oldum. Öz vəkillərim üzərindən bəyanatlar və məqalələr göndərdim ki, onları ya mənim həyat yoldaşım, ya da həmkarlarım ictimailəşdirirdilər. Həbsimə qədər bəyanatlarımda səsləndirdiyim həmin aspektlər indi də qalmaqda davam edir, təəssüf ki, ölkədə heç nə dəyişməyib”, müxalifətçi siyasət adamı bildirib. Onun sözlərinə görə, məhz təhlükəsizlik zəmanətinin olmadığı belə bir vəziyyət siyasi fəaliyyətini davam etdirməsinə səbəblər yaradır.

### ”Mövcud şəraitdə siyasi güclər birləşməli və təhlükəsizlik sisteminin vahid strategiyasını qəbul etməlidirlər, lakin indi tamamilə əksi gedir”

”Bu gün heç bir təhlükəsizlik zəmanəti yoxdur. Bizim hər birimiz istənilən an və istənilən yerdə düşmənin hədəfinə çevrilə bilərik. Bu, istənilən vaxtda, istənilən yerdə ola bilər və bunu təxmin etmək mümkün deyil. Təkcə son zamanlarda haralarasa bombaların qoyulması ilə bağlı nə qədər siqnalların verilməsini xatırlayın, halbuki bir neçə il əvvəl belə bir şeyi təsəvvürümüzə belə gətirə bilməzdik”, deyən erməni müxalifətçisi bildirib ki, Ermənistanda hər şey əks istiqamətdə gedir və ölkənin təhlükəsizliyinin təminatı məsələsi artıq ciddiyə alınmalıdır, əks halda daha ağır fəsadlar qarşıya çıxa bilər.

Çalabyan bütün bu kimi neqativ proseslərə qarşı mübarizə aparmağın vacibliyindən danışıb və uğurlu nəticə əldə etməyin çətin olduğunu deyib. O, bunu geosiyasi situasiyanın dəyişilməsi ilə əlaqələndirib: ”Biz ətrafımızda müharibələrin getdiyi və qeyri-sabitliyin əhatə olunduğu regionda yaşayırıq. Mövcud şəraitdə siyasi güclər birləşməli və təhlükəsizlik sisteminin vahid strategiyasını qəbul etməlidirlər, lakin indi tamamilə əksi gedir”.

***Rövşən***



# Putin Nikolun cavab verməsini gözləmədi!

*Paşinyana ünvanlanmış suala cavab verən Rusiya prezidenti xatırladıb ki, onun ölkəsində 2 milyondan çox erməni yaşayır*

Rusiyanın Vladivostok şəhərində keçirilən Şərq iqtisadi forumunda maraqlı məqam yaşanıb. SİA xəbər verir ki, Rusiya prezidenti Vladimir Putin rus biznesinin Ermənistana, eləcə də digər Avrasiya İqtisadi İttifaqına üzv olan ölkələrə köçmələri qərarlarına normal münasibət bəslədiyini açıqlayıb. Plenar iclas zamanı moderatorun Ermənistanın baş nazirinə ünvanlandığı sualı zamanı RF prezidenti tədbir əsnasında kiçik kazus yaşadıb və bununla əsas söz və ev sahibinin özü olduğunu nümayiş etdirib.

”Biz Rusiya biznesinin səmərəsinə olan hər şeyi alqışlayırıq. İrəvanda işləyib faktiki olaraq Moskvada yaşamaq olar və buna heç nə mane olmur”, deyən Putin onu da bildirib ki, vaxtilə Rusiyadan köçənlər artıq geri dönüblər və onlar (Rusiyadan köçənlər) anlayıblar ki, burada hər hansı qorxulu heç nə baş vermir, hər şey sabitdir.

Putin onu da qeyd edib ki, Rusiyadan köçənlərin çoxu İrəvanı deyil, Bakını seçirlər

Rusiyanın dövlət başçısı qeyd edib ki, əgər kimin üçünsə Ermənistanda işləmək asandırsa, buyursun - deyə o, Şərq İqtisadi forumunun plenar iclasında bildirib və əlavə edib ki, bəziləri İrəvanı deyil, Bakını seçirlər, həmçinin Qazağıstanda da çox yaxşı maliyyə zonası yaradıblar. Onun fikrincə, Rusiyanı ən çox tərk edənlər əsasən İT sferası ilə məşğul olan biznes nümayəndələridirlər.

### RF prezidenti: ”Nikol cavab verənə qədər demək istəyirəm ki, daha çox erməni Rusiyaya gəlib”

Plenar iclas zamanı Vladimir Putin Ermənistanın baş naziri Nikol Paşinyana ünvanlanan suala müdaxilə edərək həmin suala ilk olaraq özü cavab verib və bu məqam diqqət çəkib. Belə ki, plenar iclasın moderatoru İlya Dronov qeyd edib ki, Ermənistan Rusiyadan olan əmək miqrantları dalğası ilə qarşılaşıb və o, Nikol Paşinyana rusiyalıların Ermənistan cəmiyyətinə necə transfer olunmaları və ölkə iqtisadiyyatında hansı rolu oynamaları ilə bağlı sual ünvanlayıb.

Verilən suala müdaxilə edən və Nikol Paşinyanın cavabını gözləməyən Rusiya prezdidenti Vladimir Putin bildirib ki, Rusiyada kifayət qədər ermənilər yaşayırlar: ”Bağışla Nikol, Nikol cavab verənə qədər demək istəyirəm ki, daha çox erməni Rusiyaya gəlib. 2 milyon insandan çox”, deyə o, öz fikirlərini önə sürüb.

### Putin Paşinyana hansı məsələdə necə eyham vurdu?

Bu arada, forum zamanı RF prezidenti ilə Ermənistanın baş naziri arasında ikitərəfli görüş də keçirilib. Paşinyan Putinlə söhbətində bildirib ki, sülhməramlıların Qarabağdakı missiyası heç də asan deyil.

Putin isə bəyan edib ki, onlar Qarabağ mövzusunda daimi kontaktdadırlar. ”Əlbəttə ki, ən həssas məsələlərdən biri də Qarabağ ətrafında təhlükəsizliyin təmin olunması ilə bağlıdır. Biz hər zaman sizinlə bu barədə danışırıq, davamlı kontaktlarda qalırıq”, deyən Putin dolayısı ilə Paşinyanın ona mütəmadi olaraq zəng etməsinə eyham vurub.

***R. Nurəddinoğlu***

# Macarıstan Rusiya qazından asılılığını azaldır..?

***Beləliklə, Macarıstan 2030-cu ilə qədər Rusiya qazından asılılığı azaltmağı və ümumiyyətlə ölkənin istilik sistemində bu növ yanacağın payını azaltmağı planlaşdırır. SİA ”RİA Novosti”-yə istinadən xəbər verir ki, bu barədə ölkənin texnologiya və sənaye naziri Laslo Palkoviç bildirib.***



Onun sözlərinə görə, hakimiyyət bu məqsədlər üçün 16 milyard avro məbləğində investisiya yönəltmək niyyətindədir. ...Hazırda ölkədə təbii qazın son enerji istehlakının 35-40 faizini təşkil etdiyini deyən texnologiya və sənaye naziri ”...Macarıstanın məqsədi ”Rusiyanın enerji idxalından asılılığını azaltmaq və nəticədə müstəqilliyə nail olmaqdır”-deyə əlavə edib.

Palkoviç, qaz istehlakını azaltmağın yalnız ölkənin elektrikləşdirilməsi üzrə kompleks tədbirlərlə birlikdə mümkün olacağını da əlavə edib.

Xatırladaq ki, hələ iyul ayında Macarıstan hakimiyyəti enerji sektorunda fövqəladə vəziyyət elan etmişdi. Ölkədə qaz hasilatının 1,5 milyard kubmetrdən 2 milyard kubmetrə qədər artırılması, enerji və odun ixracına qadağa qoyulması, kömür hasilatının artırılması və s. o cümlədən bir sıra tədbirlər görülməli idi.

Yeri gəlmişkən, xatırladaq ki, Macarıstan Rusiyadan əlavə qaz tədarükü ilə bağlı razılığa gələ bilib. Belə ki, Macarıstanın xarici işlər naziri Peter Szijjartonun sözlərinə görə, ”Qazprom”la yeni saziş çərçivəsində sentyabrın 1-dən Macarıstana gündəlik qaz tədarükü gün ərzində 2,6 milyon kubmetrdən 5,8 milyon kubmetrə yüksələcək.

***Ağasəf Babayev***

SƏRHƏT+ANALİTİK+AKTUAL



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Çin möcüzəsi: Yoxsul ölkədən dünya liderliyinə aparan yol

***Bu gün Çin dünyada ən rəqabətqabiliyyətli ölkələrdən biridir. Bu səbəbdən son illərdə yuan iri investorları ən çox cəlbedən valyutaya çevrilib. Onu da nəzərə almaq lazımdır ki, Çin artıq 2014-cü ildə dünyada ÜDM istehsalı üzrə ABŞ-ı da geridə qoyaraq 1-ci yerə yüksəlib və hazırda iqtisadiyyatına görə ən böyük dövlətdir. "Dünyanın fabriki" adlandırılan Çin ən böyük ixrac ölkəsidir. İndi dünyanın bütün ölkələrində Çin məhsulları üstünlük təşkil edir- iynə-sapdan tutmuş ən son texnoloji məhsullaradək.***

### Yuan dünyanın əsas valyutasına çevriləcək

Çin iqtisadiyyatında baş verən proseslər dünyaya birbaşa təsir göstərir. İstehsal və ixrac həcmini sürətlə artıran Pekin dünya bazarında hegemonluğunu artırır. ABŞ-la iqtisadi münaqişənin kökündə də bu dayanır. Yuan dolları getdikcə daha çox sıxışdırır və dünya valyuta əməliyyatlarında öz çəkisini artırmaqda davam edir.

Hazırda dünyadakı ümumi valyuta ehtiyatlarının 10 faizi yuanda saxlanır. Təbii olaraq, bu valyutaya tələbat artdıqca o bahalaşacaq və dünya valyuta bazarında payı daha da artracaq. Bu baxımdan, Neft Fondunun valyuta səbətində yuanın payını artırması vacibdir.

Ümumiyyətlə, valyuta ehtiyatlarının tərkibi müəyyən edildikdə bəzi şərtlər nəzərə alınır. Valyutanın sərbəst dönərliliyi, onun arxasında dayanan əmtəə gücü, həmin ölkə ilə iqtisadi əlaqələrimizin çəkisi və s. Yuan bütün bu parametrlərə cavab verir. Yuanın gələcək perspektivini və Azərbaycanın Çinlə ticarət həcminin sürətlə artmasını nəzərə alsaq, bu valyutaya daha ciddi pay ayrımağın vacibliyi aydın olur.

### Çinlə iqtisadi əməkdaşlığın perspektivləri

Hazırda Azərbaycana Çindən müxtəlif ucuz məhsullar- tekstil məmulatları, elektrotexnika, oyuncaqlar, xirdavat məmulatları və s gətirilir. Bu məhsullar digər ölkələrdən idxal edilən məhsullardan xeyli ucuzdur və bazarda sürətlə mövqeləri ələ keçirir. Əgər bizim bazarda yalnız Qərb ölkələrinin malları satılsa, qiymətlər indikindən xeyli baha olardı və əhali sadəcə olaraq bu məhsulları ala bilməzdi.

Yaxın illərdə Çinin Azərbaycanla iqtisadi və ticari əməkdaşlığının perspektivinə gəldikdə isə deyə bilərik ki, getdikcə Çinlə əməkdaşlıq və ticarət artacaq. Lakin təkcə ticari münasibətlərlə kifayətlənmək olmaz. İqtisadi əməkdaşlıq bütün sahələrdə güclənə bilər. Biz Çindən müxtəlif istehsal avadanlıqları, müasir texnologiyalar gətirib zavod və fabriklər aça bilərik. Birgə müəssisələr yarada bilərik. Belə uğurlu nümunələr ölkəmizdə var. Çin şirkətləri Azərbaycanda bir sıra böyük layihələrin icarçısı kimi çıxış edir, bunların bir çoxu texnoloji layihələrdir.




Biz də Çinə müxtəlif məhsullar ixrac edə bilərik. Üstəlik, Çinin neftə də ehtiyacı böyükdür. Bu ölkəyə iri həcmdə neft satmaq mümkündür. Hazırda Çində istifadə olunan bütün neftin həcmində idxal neftinin payı təxminən 35% təşkil edir və bu getdikcə arta bilər.

Təkcə son 3 ildə Çinlə ticarət əməliyyatlarının həcmi 3 dəfəyə yaxın artaraq 1,5 milyarda çatıb. Potensial isə bundan dəfələrlə böyükdür.

Çin dünyada ABŞ və Rusiya ilə birgə 3 fövqəldövlətdən biridir və BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvüdür. Bu dövlətlə yaxın iqtisadi tərəfdaşlıq siyasi münasibətləri də yaxınlaşdırır və Pekin ölkəmizin mövqelərini beynəlxalq aləmdə qoruya bilər. Çinlə yaxın əməkdaşlığın və bu ölkənin təcrübəsindən istifadənin nə dərəcədə perspektivli olmasını təsəvvür etmək üçün bu "qırmızı ölkə"nin iqtisadi yüksəlişi haqda bəzi məlumatlara baxmağa ehtiyac var.

### Çin möcüzəsi haqda real "nağıl"

20-ci əsrin ortalarında aclıq və yoxsulluqla üz-üzə qalan Çin Den Syaopin iqtisadi islahatları ilə inkişafa başladı. 80-ci illərin sonunda Çin kollektiv cəmiyyət tipli bir çox digər dövlətlərin üzləşdiyi eyni problemlə üz-üzə qaldı. Qərb təkidlə bu dövlətlərə individual cəmiyyətə məxsus "demokratik" inkişaf yolu təklif edirdi. Bəzi postsovet dövlətləri bu təklifi qəbul etdilər və tarixən formalaşmış cəmiyyət tipini dəyişdilər. Nəticə ortadadır.

Çin isə Tyananmen meydanında bu yolun tərəfdarlarının qarşısını qətiyyətlə aldı və bu qüdrətli ölkədə xalq hakimiyyətini qoruyub saxladı. Bu tarixi əsasa söykənərək Çin dünya iqtisadi təcrübəsini fəal surətdə öyrənməyə və öz spesifikliyini nəzərə almaqla mütərəqqi texnologiyaları tətbiq etməyə başladı. Bununla belə, Çin, əksər keçmiş Sovet İttifaqı ölkələrində olduğu kimi ideologiyanın, iqtisadi və siyasi strukturun əsaslarını məhv etmədi. Nəticədə islahatlar dövründə Çində adambaşına düşən ÜDM 180-dən 1100 ABŞ dollarına qədər, yəni 6 dəfədən çox artdı.

Yoxsulluq həddində olan insanların sayı 250 mln.-dan 25 mln.-dək- 10 dəfə azaldı, yəni 25%-dən 2%ə düşdü. Çin öz müəssisələrini özəlləşmə və azad bazarla dağıtmadı. Dövlət bazarı düzgün tənzimləmə yolunu tutdu və əmtəə istehsalını fəal surətdə artırdı. İstehsal olunan əmtəə və xidmətin həcminə, həmçinin ÜDM inkişaf tempinə görə (ildə 6-8 %) Çin artıq dünyada 1-ci yerə çıxıb. Dəmir filizi ehtiyatlarına görə Çin dünyada 3-cü (Rusiya və Belçikadan sonra), tədqiq olunmuş maqnezium filizi ehtiyatlarına görə isə 2-ci yeri tutur. Qızıl istehsalına görə 1-ci yerdədir.

Ardı Səh. 15

# Çin möcüzəsi: Yoxsul ölkədən dünya liderliyinə aparan yol

Əvvəli-Səh-15

Ölkənin iri və orta şəhərlərində 15 rüsumsuz sona, 32 texniki-iqtisadi istismar zonası və 52 dövlət əhəmiyyətli yeni və yüksək texnologiyaların mənimsənilməsi zonası yaradılmışdır. Kommunist ölkə sərmayə qoyuluşunun cəlb edilməsinə görə dünyada 1-ci yerə çıxıb. Qızıl valyuta ehtiyatlarına görə isə dünyada 2-cidir.

Çinin bütün bank sistemi dövlətə aiddir, bütün iri korporasiyalara dövlət nəzarət edir. Çin bütün sərhədlərində gömrük rüsumlarını azaltmışdır, lakin ölkə daxilində məhdudiyyətlər tətbiq etmişdir. Yəni dövlət tərəfindən iqtisadiyyata məharətli və sərt nəzarət mövcuddur.

Çin rəhbərliyi vətəndaşlarının daha varlı yaşaması probleminin qayğısına qalır, o, sahibkarlıq fəaliyyətinin inkişafı üçün şərait yaradır və sahibkarlara aşağı faizlə kreditlər verir. Əksər keçmiş Sovet İttifaqı ölkələrindən fərqli olaraq ÇXR-in qızıl ehtiyatları ölkənin özündə saxlanılır.



### Kommunist dövlətin 3 mərhələli inkişaf planı

Çin Kommunist Partiyasının XVI qurultayının sənədlərində qeyd olunduğu kimi Çin "3 addım" proqramının 1-ci və 2-ci mərhələsinin tapşırıqlarının öhdəsindən müvəffəqiyyətlə gəlmişdir, bu da xalqı "isitmək və doydurmaq" vəzifəsini həll etməyə və əhalinin yaşayış səviyyəsini yüksəltməyi təmin etməyə imkan vermişdir. Proqramın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə bir səviyyəyə çıxmaq məqsədi daşıyan 3-cü mərhələsinin həyata keçirilməsinə başlanmışdır. Bu mərhələni müəyyən ardıcıllıqla reallaşdırmaq planlaşdırılır.

Məsələn, 2020-ci ilə qədər ÜDM-u 2000-ci ilə müqayisədə 4 dəfə artırmaq nəzərdə tutulurdu. Pandemiyaya, qlobal iqtisadi böhrana baxmayaraq bu hədəfə nail olundu. Bu öz növbəsində ölkənin ümumi qüdrətini və beynəlxalq rəqabət qabiliyyətini xeyli gücləndirdi və sənayeləşməni həyata keçirməyə, mükəmməl və azad bazar iqtisadiyyatı sistemi yaratmağa, şəhər əhalisinin xüsusi çəkisinin artmasına, sənaye və kənd təsərrüfatı, şəhər və kəndlər, ayrı-ayrı regionlar arasında fərqin dərinləşmə tendensiyasını aradan qaldırmağa, sosial təminat sistemini təkmilləşdirməyə, əhalinin gəlirlərini artırmağa və xalqın rifah halını qaldırmağa kömək etdi.

Açıq Qapı siyasətinin əsasını xüsusi iqtisadi zonalar təşkil etsə də, Çin diasporu-nun ölkə iqtisadiyyatına kapital yatırılmasında rolunu da xüsusilə vurğulamaq lazım-dır. Belə ki, ölkə diasporunun güclü inkişaf strategiyası nəticəsində xaricdə yaşayan milyonlarla çinli biznesmen Çin iqtisadiyyatına kapital qoyurlar ki, bu da öz növbəsində iqtisadiyyatın dinamik inkişafına gətirib çıxarır





### "Qırmızı dövlət"in dünyanı fəth planı

2050-ci ilə qədər Çində aşağıdakı strateji məqsədlərə nail olunmalıdır:

- sosial-iqtisadi inkişafın kamilliyə çatması üçün hərtərəfli sosialist modernizasiyanı təmin etmək;
- beynəlxalq arenada ölkənin statusunu əhəmiyyətli dərəcədə artırmaq və dövləti ümumi qüdrətinə görə dünyada birinci yerə çıxarmaq;
- ölkənin, əhalinin adambaşına düşən ÜDM-in həcminə görə inkişaf etmiş dövlətlərlə bir sıraya çıxmasını təmin etmək;
- xalq üçün varlı, xoşbəxt həyat yaratmaq;
- ölkəni yüksək maddi, hüquqi və mənəvi sivilizasiya səviyyəsi olan qüdrətli dövlətə çevirmək.

Ölkənin inkişaf proqramına müvafiq olaraq ÇXR-də ÜDM-un orta illik artım tempi 2010-cu ilə qədər 7,5%, 2020-ci ilə qədər 6,5%, 2030-cu ilə qədər 5,5%, 2040-cı ilə qədər 4,5% və 2050-ci ilə qədər 3,5% təşkil etməlidir.

Beləliklə, aydın olur ki, dünyanın iqtisadi liderliyini ələ keçirmiş Çin tezliklə bütün digər sahələrdə də bunu təmin edəcək. Bu kontekstdə Azərbaycanın strateji əməkdaşlıq siyahısında ilk yerlərdən birini tutucaq dövlətin adı məlum olur. Çox təqdirəlayiqdir ki, istiqamətdə işlər gedir, nəticəsi tezliklə özünü biruzə verəcək.

### Dövlət ən yaxşı sahibkardır

Çin təcrübəsi göstərir ki, dövlətin iqtisadiyyatda maksimal rolu heç də ölkə iqtisadiyyatını uçuruma aparmır. Belə ki, Asiya maliyyə böhranından sonra Çin hökuməti ölkə iqtisadiyyatına daha çox müdaxilə edərək iqtisadiyyatı tənzimləməyə başladı. 2006-cı ildə Çin hökuməti silahlar, elektrik enerjisi istehsalı və paylanması, neft və neft kimyası, telekommunikasiya, kömür, aviasiya sənayelərinin və dəniz daşınmalarının "mütləq dövlət nəzarəti" altında və qanuna görə ictimai mülkiyyətdə qalması lazım olduğunu elan etdi.

Maraqlısı budur ki, bu islahatlar iqtisadi tənəzzülə deyil, iqtisadi inkişafa apardı. 2008-ci ildə bu dövlət korporasiyaları dinamik inkişaf edərək ölkə iqtisa-diyyatında mühüm rol oynadılar. Ümumiyyətlə tamamilə dövlət müdaxiləsi olmayan bazar iqtisadiyyatı modeli yoxdur. Hər bir ölkədə müəyyən dərəcədə dövlətin müdaxiləsi vardır.

Çin təcrübəsi bir daha sübut edir ki, dövlətin iqtisadiyyata müdaxiləsi ölkəni tənəzzülə yox, iqtisadi inkişafa aparır. Bir şərtlə ki, korrupsiyanın qarşısı alınsın. Çin təcrübəsindən götürülüb tətbiq olunası çox şey var.

*Elçin Bayramlı*

SON SƏHİFƏ
Səs
8 sentyabr
2022-ci il

# Manatın məzənnəsinə təsir göstərən amillər hansılardır?



***"Azərbaycanda düzənli məzənnə rejiminə keçirilmədiyi üçün bu, Mərkəzi Bank tərəfindən praktiki olaraq birbaşa tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramov deyib.***

Onun sözlərinə görə, Mərkəzi Bankın manatın məzənnəsinin müəyyənləşdirilməsində xüsusi təsir imkanları var: "Ona görə də kursun necə dəyişməsi birbaşa Mərkəzi Bankın mövqeyindən asılıdır. Mərkəzi Bankın son açıqlamalarında qeyd olunur ki, ilin sonuna qədər manatın məzənnəsi ilə bağlı təhdidlər görünmür. Bizim də təkliflərimiz ondan ibarətdir ki, Mərkəzi Bank yarımillik və ya birillik proqnozları elan etsin. Bu da təbii ki, birbaşa manatın məzənnəsinə və investisiya qoyuluşlarına birbaşa təsir göstərə bilər. Təbii ki, manatın məzənnəsinə təsir göstərən faktorlar içərisində ölkəyə daxil olan valyutanın həcmi kimi faktorlar da var. Nəzərə alsaq ki, Azərbaycanın ümumi ixracatının təxminən 85%-i neft və enerji məhsullarıdır. Nəticə etibarilə enerjinin qiyməti birbaşa ölkəyə daxil olan valyutanın həcminə təsir göstərir. Ona görə də, növbəti dövrlər üçün manatın məzənnəsində ölkəyə daxil olan valyutanın həcmi və neftin ümumbazar qiyməti əsas faktor kimi təsir göstərir".

***Arzu Qurbanlı***

# Tomas Tuhel "Çelsi"dən qovuldu!



***Londonun "Çelsi" futbol klubu baş məşqçisi Tomas Tuheli istefaya göndərib. Bu barədə İngiltərə klubunun rəsmi saytı məlumat yayıb.***

Ötən gün futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsində Zaqreb "Dinamo"suna 0:1 hesablı məğlubiyyət 49 yaşlı mütəxəssislə yolların ayrılmasına səbəb olub. Xorvatiya klubuna bu məğlubiyyətdən sonra "Zadəganlar" alman mütəxəssislə münasibətlərin davam etdirilməsinin mümkün olmadığına dair qərar qəbul edib. Qeyd edək ki, Tuhel ötən ilin yanvar ayından London təmsilçisini çalışdırırdı.

# Bu ölkədə 700-dən çox uşaq acından öldü...



Aclıq xəbərdarlığının edildiyi Somalidə qidalanma mərkəzlərində 700-dən çox uşağın həyatını itirdiyi açıqlanıb. SİA bu barədə Türkiyə saytlarına istinad edir.

Birləşmiş Millətlər Təşkilatı Uşaq Fondu - UNİCEF-in Somali üzrə nümayəndəsi Vafaa Səid 2022-ci ilin yanvar-iyul ayları arasında qidalanma mərkəzlərində təxminən 730 uşağın həyatını itirdiyini bildirərək deyib: "Rəqəmlər arta bilər. Çünki aclıq və qida problemlərinin ortaya çıxmağa başladığından epidemiya xəstəlikləri də sürətlə artır. Somali 2011 və 2017-ci illərdə iki böyük quraqlıqla üzləşdi. Yardım səyləri sürətləndirilməlidir".

Xatırladaq ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) baş katibinin humanitar məsələlər və fövqəladə hallar üzrə yardım koordinatoru Martin Griffiths də bu ilin sonuna qədər Somalinin bəzi bölgələrində aclıq gözlənildiyini söyləyib.

# Cənnət xurmasının faydaları NƏLƏRDİR?



"Cənnət xurması kiçik olsa da qida dəyəri yüksək, çox faydalı bir meyvədir. Həzm sistemi xəstəliklərindən xərçəng xəstəliyinə qədər sağlamlıq baxımından çox faydası var". Bu fikirləri SİA-ya açıqlamasında qida üzrə mütəxəssis Asim Vəliyev bildirib.

Onun sözlərinə görə, tərkibcə bol miqdarda zülal, selüloza, fosfor, kalsium, dəmir, natrium, kalium, maqnezium, lif, tiamin (B1), riboflavin (B2), folat qaynağıdır: "Lif baxımından zəngin olduğundan çəki atmaq istəyənlər üçün də yaxşı bir seçimdir. Ürək xəstəliyi, diabet daxil bir çox xəstəliklər üçün şəfa qaynağıdır. Bu xurma qan təzyiqini tənzimləyir, iltihabı azaldır və xolesterin səviyyəsini aşağı salaraq ürək sağlamlığına dəstək olur. Cənnət xurması C vitamini ilə zəngin güclü bir antioksidant qaynağıdır. Bu meyvədə olan mis dəmir sorulmasına və qırmızı qan hüceyrələrinin əmələ gəlməsinə kömək edir. Yorğunluq və stress aradan qaldırmaq baxımından da faydalı bir meyvədir. Cənnət xurmasının içindəki çəyirdəklər istehlak edilməməlidir. Bəzi şəxslərdə qusma və baş hərlənməsinə səbəb ola bilər. Heyvanlar üçün təhlükə yarada bilər".

***Abutel İlhamqızı***

# Bakıda 13 yaşlı qız ana olub

Bakıda 13 yaşlı qız ana olub. S?A xəbər verir ki, bu barədə Azərbaycan Uşaqlar Birliyi-Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin rəhbəri Kəmalə Ağazadə məlumat yayıb.

O bildirib ki, 13 yaşlı qız ev şəraitində uşaq dünyaya gətirib:"Qız xəstəxanaya yerləşdirilib. Doğulan uşaq sağdır,13 yaşlı ana isə sığınacağımıza yerləşdirilməyini xahiş edir"- deyə o əlavə edib. Mərkəz rəhbəri qeyd edib ki, qız ona təcavüz nəticəsində hamilə qaldığını deyib.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**